AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL PROBLEMLƏRİ
İNSTİTUTU

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏKTƏBƏQƏDƏR TƏHSİL PROQRAMI (KURİKULUMU)

3-6 yaş

Məktəbəqədər təhsil pilləsi üçün məzmun standartları

Təlim strategiyaları

Uşaq inkişafının izlənilməsi və dəyərləndirilməsinə dair qiymətləndirmə mexanizmləri



**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU**

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏKTƏBƏQƏDƏR TƏHSİL PROQRAMI (KURİKULUMU)

**(3-6 yaş)**

*Təhsil Nazirliyinin 10 iyul 2012-ci il tarixli,*
*1329 nömrəli əmri ilə təsdiq edilmişdir.*

**Bakı - 2015**

***Metodik tövsiyə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin sifarişinə əsasən hazırlanmışdır.***

***Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun elmi şurasının qərarı ilə nəşr olunur.***

**Elmi redaktor:** **ƏNVƏR ABBASOV**
*Təhsil Problemləri İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Nəşrə hazırlayanlar:** **İlham Cavadov**
*Təhsil Problemləri İnstitutunun Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Laləzar Cəfərova**
*Təhsil Problemləri İnstitutunun Məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015,-96 səh.

Proqrama məktəbəqədər təhsil pilləsi üçün məzmun standartları, təlim strategiyaları, uşaq inkişafının izlənilməsi və dəyərləndirilməsinə dair qiymətləndirmə mexanizmləri daxil edilmişdir.

Proqram Azərbaycan Respublikasındakı məktəbəqədər təhsil müəssisələri, onun pedaqoji heyəti üçün nəzərdə tutulmuşdur. Ondan təhsil menecerləri və mütəxəssisləri, elmi işçilər və tələbələr istifadə edə bilərlər.

**©ARTPİ, 2015**

## Mündəricat


**Ön söz**........................................................................................ 4

**Giriş**........................................................................................... 8

**1. Məktəbəqədər təhsilin məzmunu**......................................... 15

1.1.Ümumi inkişaf və təlim nəticələri...................................... 15

1.2. İnkişaf sahələri, ona aid ümumi inkişaf və təlim nəticələri.................................................................................. 16

1.3. İnkişaf və təlim standartları............................................... 19

1.4. İnteqrasiya.......................................................................... 34

**2. Təlim strategiyaları**............................................................... 50

2.1.Təlim prosesi və onun təşkili prinsipləri............................ 51

2.2. Təlimin təşkili, istifadə olunan forma və üsullar………. 54

2.3. İnkişaf sahələri üzrə təlimin planlaşdırılması.................. 64

2.4. Valideynlərlə əməkdaşlıq................................................. 68

**3. Uşaq inkişafının izlənilməsi və dəyərləndirilməsi**................ 71

3.1. Uşaq inkişafının izlənilməsi.............................................. 71

3.2. Dəyərləndirmə və qiymətləndirmə................................... 72

3.3. Qiymətləndirmənin aparılmasına verilən tələblər............. 73

3.4. Dəyərləndirmə və qiymətləndirmənin metod və vasitələri. 74

**4. Uşaqların yaş və inkişaf səviyyəsinin qiymətləndirilməsinə dair nümunələr**........................................................................ 78

**Tezaurus**...................................................................................... 90

**İstifadə olunmuş ədəbiyyat**........................................................ 92

# Ön söz

Müstəqil Azərbaycanın ictimai, siyasi və mədəni həyatındakı böyük dəyişikliklər bütövlükdə cəmiyyətimizin inkişafından xəbər verir. Artıq Azərbaycan bir çox sahələrdə dünyanın inkişaf etmiş ölkələrinin sırasına daxil olmaqla nüfuz qazanmışdır. İnkişaf konsepsiyasında göstərildiyi kimi, "Son illərdə təhsil sahəsində nəzərə çarpan nailiyyətlərin əldə olunması da bilavasitə ölkəmizin modernləşdirilməsinə istiqamətlənmiş sosial-iqtisadi siyasətlə bağlıdır". Bu siyasətin ardıcıl olaraq davam etdirilməsi əldə olunmuş nailiyyətlərə əsaslanmaq, onları ölkəmizin gələcəyi naminə daha uğurla inkişaf etdirməkdən asılıdır. Müasir dünyanın təhsil meridianında özünə yer tutmuş dünya standartlarına uyğun modern təhsil sisteminin yaradılması istiqamətində fəaliyyətlər davam etdirilməlidir. "Azərbaycan Respublikasının təhsil sahəsində Dövlət Strategiyası"nda qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir". Bu strateji istiqamətlər təhsil sahəsindəki islahatçılıq fəaliyyətimizin metodoloji əsasını təşkil edir. Ölkəmizdə həyata keçirilən təhsil islahatlarının müasir tələblər səviyyəsində aparılmasına imkan yaradır. Artıq təhsilin bütün pillələrində islahatyönümlü tədbirlər həyata keçirilir. İlk nəticəyönümlü məktəbəqədər təhsil proqramının (kurikulumunun) hazırlanması da bu tədbirlərdən biri kimi diqqəti cəlb edir. Tamamilə yeni mahiyyət və məzmun daşıyan bu sənəd Təhsil Nazirliyinin şöbə müdiri, "Kurikulum islahatının davam etdirilməsi və kurikulumun tətbiqinə dəstək" alt-komponenti üzrə koordinator Aydın Əhmədov və Təhsil Problemləri İnstitutunun direktor müavini, Kurikulum Mərkəzinin direktoru Ənvər Abbasovun ümumi redaktəsi, beynəlxalq məsləhətçi Susan W.Nallın məsləhətçiliyi ilə aşağıdakı tərkibdə işçi qrupu tərəfindən hazırlanmışdır.

Nurlana Əliyeva - sədr, Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru, professor; Laləzar Cəfərova- işçi qrupunun əlaqələndiricisi, TPİ-nin Məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent; Nərminə Alnağıyeva - üzv, Təhsil Nazirliyi Məktəbəqədər və ümumtəhsil şöbəsinin pilot layihələrlə iş sektorunun müdiri; Limunət Əmrahlı –üzv, psixologiya üzrə fəlsəfə doktoru, dosent; İlahə Qafarova –üzv, TPİ-nin Məktəbəqədər təhsilin kurikulumu şöbəsinin elmi işçisi; Kifayət Məmmədova –üzv, TPİ-nin Məktəbəqədər təhsilin kurikulumu şöbəsinin elmi işçisi; Şərafət Baxışova –üzv, ADPU- nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru; Mehriban İsmayılova –üzv, AMİ-nin dosenti, psixologiya üzrə fəlsəfə doktoru; Lalə Həsənova –üzv, BBSİ-nin əməkdaşı, həkim-məsləhətçi; Fəridə Əliyeva –üzv, Xətai rayonu, 257 №-li uşaq bağçasının metodisti; Dilarə Dadaşzadə -üzv, Sabunçu rayonu, 247 №-li uşaq bağçasının tərbiyəçisi, şöbənin elmi müxbiri; Zenfira Ağayeva –üzv, Nərimanov rayonu, 69 №-li uşaq bağçasının tərbiyəçisi; Fəridə Abdullayeva –üzv,Yasamal rayonu, 11 №-li uşaq bağçasının tərbiyəçisi; Səbinə Məmmədova –üzv, Sabunçu rayonu,105 №-li uşaq bağçasının tərbiyəçisi; Rəhilə Həsənova – üzv, Xətai rayonu, 236 №-li uşaq bağçasının metodisti; Dilbər Səmədova – üzv, Binəqədi rayonu, 266 №-li uşaq bağçasının müdiri; Sədaqət Rəhimova – üzv, Xətai rayonu, 240 №-li uşaq bağçasının müdiri; Səlahət Musayeva –üzv, Xətai rayonu, 235 №-li uşaq bağçasının müdiri; Qəmər Tağıyeva –üzv, Ekologiya liseyinin sinif müəllimi; Lətifə Məcidova–üzv, Zəngi liseyinin sinif müəllimi; Nigar Zeynalova–üzv, ADPU-nin müəllimi; Ruhiyyə Mehdiyeva - üzv, TPİ-nin Tədqiqatların İKT təminatı şöbəsiniun müdiri, valideyn.

Təhsil Nazirliyi Məktəbəqədər təhsil sektorunun müdiri Nərminə Alnağıyeva, Təhsil Problemləri İnstitutunun Kurikulum Mərkəzi, onun Məktəbəqədər təhsilin kurikulumu şöbəsi (müdir: pedaqogika üzrə fəlsəfə doktoru, dosent L.K.Cəfərova) işçi

qrupunun işini əlaqələndirmək məqsədilə təşkilati tədbirlər həyata keçirmiş, məktəbəqədər təhsilin kurikulumunun hazırlanmasında yaxından iştirak etmişlər. Sənədin hazırlanmasında həmçinin Bakı Avropa liseyinin direktoru psixologiya üzrə fəlsəfə doktoru Zülfiyyə Veysova, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin icraçı direktoru Ülviyyə Mikayılova və proqram meneceri Yuliya Kərimova, UNİCEF-in məktəbəqədər təhsil üzrə məsləhətçisi Leyla Həsənova, Təhsil Nazirliyinin şöbə müdiri Həbib Kərimov, AMİ-nin müəllimi dos. Şahrza Ağayev iştirak etmişlər.

Məktəbəqədər təhsilin kurikulumunun layihə variantı müzakirə olunmaq üçün çap edilərək geniş pedaqoji ictimaiyyətə çatdırılmışdır. Respublikanın müxtəlif şəhər və rayonlarından məktəbəqədər təhsil üzrə mütəxəssislərdən alınmış rəy və təkliflər sənədin təkmilləşdirilməsinə kömək etmişdir.

"Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu)" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyul tarixli, 137 nömrəli qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı"na əsasən hazırlanmışdır. Bu sənəd tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün məktəbəqədər təhsil müəssisələrinə şamil olunur. Sənəddə təsdiq olunmuş standartların reallaşdırlması üçün nümunəvi təlim strategiyaları və qiymətləndirmə mexanizmləri verilmişdir.

Məktəbəqədər təhsil proqramı (kurikulumu) Azərbaycan Respublikasının təhsil nazirinin 10.07.2012-ci il tarixli, 1329 nömrəli əmri ilə təsdiq olunmuşdur. Bu sənəd məzmununda üç mühüm parametri əhatə edir. O parametrlərdən birincisi yeni məzmundur. Burada məktəbəqədər təhsilin standartları əhatə olunmuşdur. Müasir tələblərə cavab verən bu standartlar 3-6 yaşda olan uşaqların inkişaf istiqamətləri üzrə qruplaşdırılmaqla inteqrativ xarakter daşıyır. Orada kiçikyaşlı uşaqların əqli, hissi və fiziki inkişafı ilə bağlı bacarıqlar əhatə edilir. Müəyyən olunmuş nəticələrdə standartlardan ibarət bu məzmun təhsilin başlanğıc

pilləsində nəinki uşaqların inkişafının istiqamətləndirilməsi, eyni zamanda bir təşkilat kimi məktəbəqədər təhsil müəssisəsinin müasir texnologiyalara əsasən idarə olunmasına imkan yaradır.

Proqramın ikinci hissəsi "Təlim strategiyası" adlandırılır ki, burada da təhsil prosesində istifadə olunması tövsiyə olunan texnologiyalar verilir. İlk növbədə əsas tələblər, daha sonra iş formaları, üsullar, planlaşdırma nümunələri və valideynlərlə əlaqə məsələləri əhatə olunur. Müəyyən olunmuş standartların reallaşdırılması üçün texnologiyalardan istifadə etməkdə məktəbəqədər təhsil müəssisəsinin əməkdaşlarına sərbəstlik verilir. Onlar müəyyənləşdirdikləri məqsədlərin həyata keçirilməsi üçün mövcud strategiyalara yaradıcı yanaşmaqda, yaxud müasir tələblərə uyğun texnologiyalar hazırlamaqda səlahiyyətlidirlər.

Proqramın üçüncü hissəsində uşaqların inkişafının izlənməsinə və dəyərləndirilməsinə dair qiymətləndirmə texnologiyaları əhatə olunur. Bu texnologiyaları əhəmiyyətliliyi baxımından həm məktəbəqədər təhsil mütəxəssislərinin, həm də valideynlərin bilməsi zəruri hesab edilir.

Nəhayət, proqrama uşaqların yaş və inkişaf səviyyəsinin qiymətləndirilməsinə dair nümunələr, tezaurus və istifadə olunmuş ədəbiyyat siyahısı da daxil edilmişdir ki, bunlar da pedaqoji prosesin səmərəli qurulması baxımından faydalı hesab edilir.

"Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu)" ilk nəticəyönümlü məktəbəqədər təhsil sənədi kimi nəşr olunur. Onunla bağlı fikir söyləyən, arzu və təkliflərini bildirən hər bir kəsə əvvəlcədən öz təşəkkürümüzü bildiririk.

*Qulu Novruzov,*
*Təhsil Problemləri İnstitutunun direktoru,*
*hüquq üzrə fəlsəfə doktoru*

# GİRİŞ

***Məktəbəqədər təhsilin əhəmiyyəti və rolu.*** 3-6 yaş dövrü uşaqların inkişafında çox mühüm dövrdür. Məhz bu dövrdə uşaqların beyin hüceyrələrinin artması və onlar arasında əlaqələrin qurulması prosesi baş verir. Bunun da nəticəsində uşağın düşünmə, qavrama və ətraf mühitdə insanlar və əşyalarla qarşılıqlı təsir istiqamətində daha mürəkkəb mərhələyə keçməsi üçün zəruri dəyişikliklər baş verir. Beyinin düzgün inkişafı şəraitində potensial dərketmə qabiliyyətləri artır. Əslində beyin o vaxt düzgün inkişaf edir ki, uşaq müsbət (özünü sevilən hiss edir) psixoloji və stimullaşdırıcı (uşağın ətrafında olan böyüklər: ana, tərbiyəçi və b.) mühitdə böyüyür.

Uşağın məktəbdəki uğurlu təhsili, şəxsiyyət kimi formalaşması, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılıdır. Məktəbəqədər təhsil uşaqların fiziki, psixoloji, idrakı və sosial inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, sadə əmək vərdişlərinə yiyələnməsi, istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlığının qorunması və estetik inkişafında, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq kimi keyfiyyətlərin, hisslərin və həyati bacarıqların formalaşmasında mühüm rol oynayır. Məktəbəqədər yaş uşağın fəal sosiallaşması, mədəni vərdişləri mənimsəməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür və qrup şəraitində böyüklər və yaşıdları ilə hərətərəfli ünsiyyət qurmaq və ünsiyyət bacarıqlarını inkişaf etdirmək imkanı əldə edir.

Məktəbəqədər müəssisə də öz növbəsində uşağın ətraf aləmlə qarşılıqlı harmoniyasını təmin etməyə, xeyirxah hisslər oyatmağa, əməkdaşlığa və müsbət özünütəsdiqə nail olmağa qadirdir. Bunların da əsası məktəbəqədər müəssisələrdə qoyulur. Məhz bu dövrdə uşaqlarda ətraf aləm haqqında ilkin təsəvvürlər, təfəkkür elementləri formalaşır, ətraf aləmin hadisələri, sadə qanunları və qanunauyğunluqları arasında qarşılıqlı əlaqələri müəyyənləşdirmək və əldə

edilmiş bilikləri praktik fəaliyyətdə müstəqil tətbiq etmək bacarığı yaranır. Uşaqlar fakt və hadisələri müqayisə etmək, ümumiləşdirmək, qruplaşdırmaq, əlamətlərinə görə ayırmaq, nəticə çıxartmaq kimi bacarıqlara yiyələnirlər.

Uşaq şəxsiyyətinin inkişafı üçün şərait yaradan sosial mühitdə ünsiyyətin rolu böyükdür. Ünsiyyət prosesində maddi və mənəvi dünyanın, təbiət, əşya və sosial aləmin dərk olunması, şəxsiyyətlərarası münasibətlərin inkişafı, emosional və iradi mədəniyyətin təşəkkül tapması baş verir. Ünsiyyət yeni sosial mühitə uyğunlaşmaya imkan yaradır. Ünsiyyət vasitəsilə uşaq özünü ifadə edir, digərlərini başa düşür, cəmiyyətdə öz yerini və vacibliyini dərk etməyiə çalışır. Bunun üçün müvafiq bacarıqların mənimsənilməsi zəruri hesab edilir. Kommunikativ bacarıqlara nail olmaq uşağın sosial davranışını yaxşılaşdırır: digərini başa düşüb qəbul etməyə, məlumat verməyə, hisslərini ifadə etməyə, bütövlükdə nitq inkişafına imkan yaradır. İlkin qazanılan bacarıq və vərdişlər, milli-mənəvi keyfiyyətlər şəxsiyyətin həyat mövqeyini müəyyənləşdirir. Müasir təhsil modelində məktəbəqədər təhsilə ümumi təhsilin birinci pilləsi, uşaqların məktəb təliminə müvəffəqiyyətlə keçidi üçün bərabər imkanların yaradılmasının əsası kimi baxılır.

Bu yaş mərhələsində nəinki bütün uşaqlar üçün ümumi olan xarakter cizgiləri, həm də xüsusi, fərdi psixi və davranış xüsusiyyətlərinin açılmasına və inkişafına nail olunur. Məktəbəqədər yaş dövründə uşaqlarda hərəkətliliyə tələbat güclənir, operativ hafizə inkişaf edir, hərəkətlərin dəqiqliyi, uyğunluğu, ayrılmazlığı yaranır. Bütün hərəki fəaliyyətlər dərk olunur, dinamik və məqsədyönlü xarakter daşıyır. Fiziki və idraki çalışqanlıq artır. Xarakter, əqli və iradi keyfiyyətlər, motiv formalaşır. Məktəbəqədər təhsil ibtidai məktəbə keçid ərəfəsində (5-6 yaş dövrü) uşağın həm məktəbdə, həm də sonrakı həyatda uğurlar qazanmasında həlledici rol oynayır.

***Məktəbəqədər təhsilin məqsəd və vəzifələri.*** Məktəbəqədər təhsil pilləsində uşaqların təhsil alması, təlim-tərbiyə işinin daha səmərəli qurulması tələb olunur. Bu zaman psixologiya, pedaqogika,

sosiologiya, biologiya və digər elmlərin nailiyyətlərinə, milli mədəniyyətə, adət-ənənələrə, eləcə də müasir dünya təcrübəsinə istinad olunması zəruri hesab edilir. Bunlarla yanaşı, uşaqların ümumi inkişafı, onların şəxsiyyətinin formalaşdırılması, təlim-tərbiyənin səmərəliliyinin artırılması, inkişaf və davranışda baş verə biləcək ləngimələrin, pozuntuların aradan qaldırılması, "uşaq-uşaq", "tərbiyəçi-uşaq", "valideyn-tərbiyəçi" münasibətlərinin, eləcə də kollektivdə qarşılıqlı münasibətlərin düzgün qurulması mühüm istiqamətlər kimi diqqət mərkəzində saxlanılır.

Məktəbəqədər təhsilin məqsədi uşağın fiziki, psixi, emosional, sosial və idraki inkişafı üçün şərait yaratmaq, uşaqların sadə əmək vərdişlərinə yiyələnməsini təmin etmək, uşaqlarda məntiqi və yaradıcı təfəkkürün ilkin elementlərini formalaşdırmaq və istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını təmin etməkdən ibarətdir.

Bu məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- ailədə və məktəbəqədər müəssisələrdə uşaqların təhlükəsizliyinin qorunması;
- uşaqlarda sağlam həyat tərzinə aid müvafiq bacarıq və vərdişlərin formalaşdırılması;
- uşaqların fiziki, psixi, sosial-emosional, idraki inkişafının təmin edilməsi;
- uşaqlarda Vətənə məhəbbət, millətinə, dilinə, dininə, dövlət rəmzlərinə, Azərbaycan xalqının, həmçinin digər xalqların milli-mənəvi dəyərlərinə hörmət hissinin yaranması və inkişafı;
- uşağın tələbat və maraqlarının müəyyən edilməsi, təhsildə bu amillərin nəzərə alınması;
- uşaqların məktəb təliminə hazırlanması.

***Məktəbəqədər təhsil proqramının (kurikulumunun) məqsəd və vəzifələri.***

Məktəbəqədər təhsil proqramında (kurikulumunda) məktəbəqədər yaşlı uşaqların ilkin həyati bacarıq və vərdişlərə yiyələnməsi

tələb olunur, onlara gələcək həyat fəaliyyətində lazım olacaq bacarıq və vərdişlərin, qabiliyyətlərin aşılanması ön plana çəkilir. Onların bir şəxsiyyət kimi formalaşmasının bünövrəsi qoyulur. Məktəbəqədər təhsil proqramında (kurikulumunda) uşaq fəaliyyətinin təmin olunması və bacarıqlarının formalaşması, onun bir subyekt kimi inkişaf etməsi üçün müvafiq təhsil şəraitinin yaradılması nəzərdə tutulur.

Bu məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəmüvafiq hesab edilir.

Məktəbəqədər dövrdə uşaqların inkişafının tənzimlənməsi.

Uşaqların məktəb təliminə hazırlığının məzmununun tənzimlənməsi.

Məktəbəhazırlığın təşkili qaydalarını təqdim etməklə keyfiyyətin təmin olunması.

Məktəbəqədər təhsil sahəsində çalışan mütəxəssislərin səriştəliliyinin artırılması.

Bütün maraqlı tərəflərin (məktəbədər təhsil mütəxəssisləri, ailələr, valideynlər və s.) rollarının müəyyənləşdirilməsilə məktəbəqədər təhsilin keyfiyyətinin təmin edilməsi.

Məktəbəqədər təhsilin kurikulumu hazırlanarkən aşağıdakı prinsiplər əsas götürülmüşdür:

- uşaqyönümlülük;
- nəticəyönümlülük;
- inkişafyönümlülük;
- inteqrativlik;
- hər bir uşağın inkişafı üçün bərabər şəraitin yaradılması;
- millilik və dünyəviliyin nəzərə alınması;
- uşaqların məktəb təliminə hazırlanmasının zəruriliyi.

Məktəbəqədər təhsil proqramı (kurikulumu) şəxsiyyətyönümlü xarakter daşıyır. Şəxsiyyətyönümlülük proqramın (kurikulumun) məqsəd və məzmunu ilə bağlı olub, cəmiyyət üçün yararlı şəxsiyyətin formalaşdırılmasının yerinə yetirilməsini təmin edir.

Şəxsiyyətyönümlü təhsil proqramına (kurikulumuna) görə uşaqlarla gələcək həyat fəaliyyətində ona lazım olacaq ən zəruri ilkin həyati bacarıq və qabiliyyətlərin yaradılması istiqamətində iş aparılır, bacarıq və vərdişlər aşılanır, qabiliyyətlərin formalaşması ön plana çəkilir. Onların bir şəxsiyyət kimi formalaşmasının bünövrəsi qoyulur. İnkişaf sahələri üzrə bütün nəticələr uşaqlara, onların inkişafının təmin olunmasına yönəldilir və inkişafı əks etdirir.

Məktəbəqədər təhsil proqramı (kurikulumu) hazırlanarkən uşaq fəaliyyətinin təmin olunması və bacarıqlarının formalaşması, onun bir subyekt kimi inkişaf etməsi üçün müvafiq təhsil şəraitinin yaradılması nəzərə alınmışdır**.** Məzmunda standartların verilməsi və bu standartların təhsilalanlara yönəldilməsi ***uşaqyönümlülüyü*** ifadə edir. Bu keyfiyyət uşaqlara nəyi, necə və kiminlə öyrənmək və oynamaq istədiklərinə imkan yaradır. Bu yanaşma uşaqları fəaliyyətlərə təşəbbüs etməyə, öz yollarını müəyyənləşdirməyə istiqamət verir. Öz təcrübələrinə, onları əhatə edən ətraf mühitlə fəal ünsiyyətə əsaslanaraq yeni bilik və bacarıqlar əldə etməkdə və bütöv şəxsiyyət kimi inkişaf etməkdə uşaqlara şərait yaradır.

Məktəbəqədər təhsil proqramı (kurikulumu) həm də ***nəticəyönümlüdür.*** Onun məzmunu nəticələr formasında ifadə edilmişdir. Nəzərdə tutulmuş bütün bilik və fəaliyyətlər həmin nəticələrdə əhatə olunmuşdur. Nəticəyönümlülük son nəticəni görməyə, əldə olunacaq nailiyyətləri əvvəlcədən təsəvvür etməyə imkan yaradır. Bu isə uşaqların inkişafını müşahidə etmək, istiqamətləndirmək üçün qiymətləndirmə aparmaq baxımından əhəmiyyət daşıyır.

Uşaqların idrak fəallığının izlənilməsi, inkişaf səviyyələri və nailiyyətlərinin təhlil edilməsi, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsinin tənzimlənməsi onun ***inkişafyönümlülüyünü*** meydana çıxarır. Uşaqlar müxtəlif yollarla öyrənir və öyrəndiklərini də müxtəlif vasitələrlə ifadə edirlər. Ona görə də kiçikyaşlı uşaqların öyrənmə prosesi səmərəli təşkil olunmalıdır. Belə ki, planlaşdırmada

və təlim zamanı hər bir uşağın inkişaf səviyyəsi və maraq dairəsi, inkişaf prinsipləri nəzərə alınmalı, uşaqların yeni məlumatlar əldə etməsi və hərtərəfli inkişafı təmin olunmalşdır.

Məzmunun inteqrativliyi məktəbəqədər yaşlı uşaqların bütün inkişaf sahələrinin əlaqəli inkişafını təmin etmək məqsədinə xidmət edir. Təlimin məzmununun fiziki, sosial-emosional, idraki və estetik bacarıqların ifadə olunmasına yönəlməsi isə onun ***inteqrativ*** xarakterinin bir cəhətidir.

Məktəbəqədər təhsil proqramında (kurikulumunda) məzmuna, həm də uşağa, onun maraq, ehtiyac və imkanlarına və s. uyğun müvafiq təlim strategiyaları verilir. Gözlənilən nəticələrin əldə olunması və inteqrativliyin nəzərə alınmasında təlim məqsədlərinin və mühitin yaradılması vacib hasab edilir. Bu zaman uşaqların bir şəxsiyyət kimi fəaliyyətə cəlb edilməsi, onun meyl və maraqlarının nəzərə alınması, uşaqlar və böyüklərlə əməkdaşlığı, yaradıcılığı və təşəbbüskarlığı xüsusi olaraq nəzərə alınır diqqət mərkəzində saxlanılır.

Orada müəyyən olunmuş nəticələr həyati bacarıq və vərdişləri ehtiva etməklə uşaqların idraki, fiziki, estetik, yaradıcı, hissi və psixomotor bacarıqlarının inkişafına yönəldilir. Məktəbəqədər təhsil proqramının (kurikulumunun) inteqrativ məzmunda hazırlanması uşaq bağçalarında uşaqların zəruri bilik, bacarıq və vərdişlər qazanmalarına və uşaq şəxsiyyətinin formalaşması üçün lazım olan praktik işlərin həyata keçirilməsinə imkan yaradır. Məzmunun inteqrativliyi uşaqlar üçün bütün inkişaf sahələrində (fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik, idrak, sosial-emosional və estetik inkişaf) öyrənmə imkanları yaradır. Tərbiyəçilər həm də uşaqların maraqlarını və onların arzularını nəzərə almaqla, təlim mühiti yaradırlar. Tədqiqatlar göstərir ki, inteqrativlik məktəbəqədər yaşlı uşaqların inkişafında ən yaxşı və səmərəli yanaşmadır. Bunun üçün işin müvafiq qaydada planlaşdırılması əhəmiyyətli hesab edilir. Ona görə də tərbiyəçilər fəaliyyətlərini müasir səviyyədə qurmaq üçün plan hazırlamaq bacarığına yiyələnməlidirlər.

Məktəbə hazırlıq mərhələsində uşaqların inkişafı, tərbiyəsi və təhsili prosesinin məqsədəuyğun təşkili məktəbəqədər təhsilin səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Bu isə həm də ***hər bir uşağın inkişafı üçün bərabər imkanların yaradılması*** zərurətini meydana çıxır. Beləliklə, keyfiyyətli təhsil baxımından bütün uşaqlar üçün eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanlarını nəzərə almaqla tənzimlənir. Məktəbəqədər təhsil proqramı (kurikulumu) sənədində ümumi təlim nəticələrini reallaşdırmaq üçün uşaqların inkişafında bərabər imkanların yaradılması xüsusi prinsiplərdən biridir.

***Millilik və dünyəvilik*** milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsidir.

Məktəbəqədər təhsil kurikulumunun məqsədlərindən biri də ***uşaqların məktəb təliminə hazırlanmasıdır.*** Uşaqların məktəb təliminə hazırlığı onlarda oxumaq həvəsini, məktəbə müsbət emosional münasibəti inkişaf etdirir və möhkəmləndirir. Uşaqların məktəbə müvəffəqiyyətlə adaptasiya olunması üçün onlarda sosial keyfiyyətləri formalaşdırır. Məktəb təliminə hazırlığın əsas məqsədi uşaqların tələb və imkanlarını nəzərə almaqla onların inkişafı, tərbiyəsi və təhsili prosesini təşkil etməkdir. Məktəbəqədər təhsil proqramında (kurikulumunda) bu mühüm məsələlər xüsusi olaraq nəzərə alınmışdır.

# I. MƏKTƏBƏQƏDƏR TƏHSİLİN MƏZMUNU

## 1.1.Ümumi inkişaf və təlim nəticələri

***Məktəbəqədər təhsil pilləsinin sonunda uşaq:***

- sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir;
- qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir;
- böyük, kiçik və hissi (sensor)-motor hərəkətlərini koordinasiya edir;
- təhlükəsizlik qaydalarına əməl edir;
- nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir;
- sadə riyazi-məntiqi əməliyyatları yerinə yetirir;
- əşya və hadisələr haqqında ilkin təsəvvürlərə malikdir və anlayışları izah edir;
- səbəb-nəticə əlaqələrini müəyyən edir və fərziyyələr irəli sürür;
- sadə təqdimatlar edir;
- sosial və mənəvi dəyərlərə öz münasibətini bildirir;
- insanlara qarşı hörmət  və dözümlülük (tolerantlıq) nümayiş etdirir;
- özündən kiçiklərlə, həmyaşıdları və böyüklərlə qarşılıqlı ünsiyyət qurur;
- sosial normaları dərk edir və davranışında ona riayət edir;
- sadə əmək bacarıqları nümayiş etdirir;
- sadə bədii yaradıcılıq bacarıqları nümayiş etdirir;
- özünüdərk bacarıqları nümayiş etdirir;
- mədəni-estetik təsəvvürlərə malikdir və yaradıcılıq bacarıqları nümayiş etdirir.

## 1.2. İnkişaf sahələri və ona aid təlim nəticələri.

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik**

Məktəbəqədər təhsil müəssisələrində uşaqların fiziki inkişafi, sağlamlığının qorunması və təhlükəsizliyi təmin olunur. Sağlamlığın möhkəmləndirilməsi, orqanizmin müqavimət qabiliyyətinin yüksəldilməsinin əhəmiyyəti haqqında anlayışlar yaradılır. Fiziki inkişafa böyük, kiçik və hissi (sensor) motor hərəkətlərinin inkişafı daxildir. Uşağın hərtərəfli inkişafı üçün daha səmərəli vasitələrin müəyyən edilməsi, gigiyenik tələblərə cavab verən şəraitin yaradılması (rasional qidalanma, düzgün təşkil edilmiş rejim, fiziki mədəniyyət məşğələləri və s.), bunların qarşılıqlı əlaqədə olması, düzgün qamət, hərəkət texnikası, hərəkətli oyunların qaydaları, eləcə də, hərəkət vərdişləri ilə yanaşı, uşaqlarda fiziki keyfiyyətlərin inkişaf etdirilməsi təmin olunur.

Təhlükə və çətinliklərə hazırlıq, yol-hərəkəti qaydaları, ekstremal vəziyyətlərdə və təhlükəli situasiyalarda necə hərəkət etmək haqqında ilkin təsəvvürlərin formalaşdırılmasına, məişətdə ehtiyatlı, küçədə mədəni davranmaq, təbii hadisələr və yanğın zamanı müraciət qaydalarının mənimsənilməsinə, ekoloji mədəniyyətin formalaşdırılmasına imkan yaranır.

***Ümumi inkişaf və təlim nəticələri***

***Uşaq:***

• sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir;
• qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir;
• böyük, kiçik və hissi (sensor)-motor hərəkətlərini koordinasiya edir;
• təhlükəsizlik qaydalarına əməl edir.

**İdrakın inkişafı**

Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişafı onlarda öyrənməyə həvəs və maraq formalaşdırır. Məktəbəqədər yaşlı uşağın

idrak fəaliyyətində sistemlilik, ardıcıllıq, əlaqəlilik, həyat şəraitinə uyğunluq və həyatda tətbiq etmə mühüm şərt hesab olunur. Məktəbəqədər yaş dövründə uşaq idrakın inkişafı baxımından, ilk növbədə, sadə danışıq dilinə və rabitəli nitqə yiyələnir, ətrafdakılarla ünsiyyət qurur, öz fikirlərini təqdim etməyi öyrənir. Uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə edir, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək qabiliyyəti nümayiş etdirir. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir. Riyazi tapşırıqların həlli zamanı uşaqlarda induksiya və deduksiya, ümumiləşdirmə və konkretləşdirmə, analiz və sintez, təsnifetmə və sistemləşdirmə, mücərrədləşdirmə və analogiya kimi mühakimə qabiliyyətləri inkişaf edir.

***Ümumi inkişaf və təlim nəticələri***

***Uşaq:***

- nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir;
- sadə riyazi-məntiqi əməliyyatları yerinə yetirir;
- əşya və hadisələr haqqında ilkin təsəvvürlərə malik olur və anlayışları izah edir;
- səbəb-nəticə əlaqələrini müəyyən edir və fərziyyələr irəli sürür;
- sadə təqdimatlar edir.

**Estetik və yaradıcı inkişaf**

Məktəbəqədər təhsil ətraf aləmin gözəlliklərini duymaq, estetik cəhətdən qavramaq və müvafiq bədii nümunələr yaratmaq üçün ilkin pillədir. Bu sahədə aparılan işlər estetik tərbiyənin vəzifələrinə daxildir. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Estetik tərbiyə məktəbəqə-

dər yaşlı uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin edir. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşməsi, quraşdırma prosesində müxtəlif modellərin qurulması, yeni hekayə və nağılın, musiqi fəaliyyətində sadə melodiyanın dinlənilməsi, mahnı və uşaq musiqi alətlərində ifa, rəqs məktəbəqədər yaşlı uşaqların estetik inkişafına kömək edir. Uşaqlarda ətraf aləmin gözəlliklərini düzgün qiymətləndirmək bacarığı və ətraf aləmə müsbət emisional münasibət formalaşmağa başlayır.

***Ümumi inkişaf və təlim nəticələri***

***Uşaq:***

- sadə bədii yaradıcılıq bacarıqları nümayiş etdirir;
- mədəni-estetik təsəvvürlərə malik olur və yaradıcılıq bacarıqları nümayiş etdirir;
- sadə əmək bacarıqları nümayiş etdirir.

**Sosial-emosional inkişaf**

Məktəbəqədər yaşlı uşaqlarda sosial və emosional keyfiyyətlər vəhdətdə inkişaf edir. Uşaq özünün emosional əhvalını məhz yaşadığı sosial mühitin normaları əsasında, buna uyğun olaraq tənzimləyir. Sosial-emosional inkişaf vasitəsilə uşaqlarda insanlara qarşı müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq, konfliktlərin həlli və s. kimi mənəvi keyfiyyətlər yaranır. Uşaqlar oyun, əmək və əməli fəaliyyətə, kollektivdə davranma qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər. Kommunikasiyanın köməyilə birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, böyüklərə hörmət, qarşılıqlı təsir və qarşılıqlı anlaşma təmin olunur. Kommunikasiya uşağın sosial şəxsiyyət kimi formalaşmasında əsas vasitəyə çevrilir.

***Ümumi inkişaf və təlim nəticələri***

***Uşaq:***

• sosial və mənəvi dəyərlərə öz münasibətini bildirir.

• insanlara qarşı hörmət və dözümlülük (tolerantlıq) nümayiş etdirir;

• özündən kiçiklər, həmyaşıdları və böyüklərlə qarşılıqlı ünsiyyət qurur;

• sosial normaları dərk edir və davranışında ona riayət edir;

• özünüdərk bacarıqları nümayiş etdirir.

## 1.3. İnkişaf və təlim standartları

### 1. Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik
### Orta qrup (3-4 yaş)

***Uşaq:***

***1.1. Sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir.***

1.1.1. Fiziki tapşırıqların (gimnastika, hərəkətli oyun, gəzinti) yerinə yetirilməsinə maraq nümayiş etdirir.

1.1.2. Orqanizmin möhkəmləndirilməsi prosedurlarından normalara[1] uyğun istifadə edir.

1.1.3. Sadə özünəxidmət vərdişləri (soyunmaq, geyinmək) nümayiş etdirir.

***1.2. Qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir.***

1.2.1. Masa arxasında mədəni davranış qaydalarına (qaşıqdan istifadə etmək; yeyərkən danışmamaq; yeməyi ağzı bağlı çeynəyib udmaq) əməl edir.

---

[1] Yay vaxtı bütün yaş qrupları üçün ümumi duş qəbul etmə yeməkdən qabaq aparılır. Ayaqları üzərindən gah isti, gah da nisbətən aşağı temperaturda su axıdılır. Ümumi su prosedurlarından bütün bədənə su axıtmağa keçilir. Suyun ilkin temperaturu 34-35°, 2-3 gündən bir 1° azaldılaraq son temperatur 26-24° -dək endirilməlidir. Hava vannası qəbul edərkən havanın temperaturu 23°-dən artıq olmamalıdır.

1.2.2. Şəxsi mədəni gigiyena qaydalarına (sabundan düzgün istifadə etmək; əlini, üzünü, qulağını yumaq və qurulamaq; daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) əməl edir.

***1.3. Böyük, kiçik və hissi (sensor) motor hərəkətlərini koordinasiya edir.***

1.3.1. Əsas hərəkətləri (müxtəlif istiqamətlərə yeriş və qaçış hərəkətlərini icra etm; uzununa və maneələrin üstündən hoppanma; dırmanma, gimnastik skamyanın üstü ilə sürünmək və müvazinətini saxlamaqla yeriş; topu, kürəciyi bir-birinə tərəf diyirlətmə və atıb-tutma) yerinə yetirir.

1.3.2. Fəaliyyət zamanı hərəki qabiliyyətlər[2] nümayiş etdirir.

1.3.3. Əşyanı (karandaş, flamaster, plastilin, fırça, top və oyuncaqları) barmaqları arasında düzgün saxlayaraq şəkil çəkmə, yapışdırma, quraşdırma, atıb-tutma kimi hərəkətləri sadə tərzdə yerinə yetirir.

1.3.4. Müxtəlif fəaliyyət növlərində əşyaların xüsusiyyətinə (forma, rəng, hərəkət, ölçü, səs, toxunma, qoxusuna) görə fərqləndirir.

***1.4. Təhlükəsizlik qaydalarına əməl edir.***

1.4.1. Kəsici, deşici, yandırıcı əşyalar və elektrik cihazları ilə, sahibsiz heyvanlarla, tanış olmayan adamlarla ehtiyatlı davranır.

## Böyük qrup (4-5 yaş)

**Uşaq:**

***1.1. Sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir.***

1.1.1. Fiziki tapşırıqların (gimnastika, hərəkətli oyun, gəzinti, növbətçilik) yerinə yetirilməsinə maraq nümayiş etdirir.

1.1.2. Orqanizmin möhkəmləndirilməsi prosedurlarından normalara[3] uyğun istifadə edir.

---

[2] Fiziki tapşırıqları, hərəkətli oyunları yerinə yetirərkən müstəqillik və yaradıcılıq kimi psixi-fiziki keyfiyyətlər inkişaf edir.

1.1.3. Özünəxidmət vərdişləri (səliqə ilə soyunub-geyinmək, yatağını səliqəyə salmaq) nümayiş etdirir.

***1.2. Qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir.***

1.2.1. Masa arxasında mədəni davranış qaydalarına (yeməyi az-az götürmək və yaxşı çeynəmək; səssiz yemək; qaşıq və çəngəldən, salfetdən düzgün istifadə etmək) əməl edir.

1.2.2. Şəxsi mədəni gigiyena qaydalarına (yeməkdən əvvəl və sonra əllərini sabunla yumaq və qurulamaq,yeməkdən sonra ağzını yaxalamaq, xarici görünüşünü səliqəyə salmaq; daraq, burun dəsmalı və salfetdən istifadə etmək; asqırıb, öskürərkən üzünü çevirib, ağzını və burnunu dəsmalla tutmaq) əməl edir.

***1.3. Böyük, kiçik və hissi(sensor) motor hərəkətləri koordinasiya edir.***

1.3.1. Əsas hərəkətləri (düzgün hərəkət texnikasını gözləməklə müxtəlif istiqamətlərə yeriş və qaçış; müxtəlif istiqamətlərə və məsafələrə hoppanma; müxtəlif əşyaların üstü və arası ilə sürünmə; gimnastika nərdivanına dırmanma; müxtəlif hərəkətləri yerinə yetirərkən müvazinətini saxlama; topu, kürəciyi müxtəlif üsullarla atıb-tutma) yerinə yetirir.

1.3.2. Fəaliyyət zamanı hərəki qabiliyyətlər[4] nümayiş etdirir.

1.3.3. Əşyalardan (karandaş, tabaşir, plastilin, gil, fırça, qayçı, rəngli boya, mozaika, top, oyuncaqlar, quraşdırma materialları) istifadə edir.

1.3.4. Müxtəlif məsafələrdə olan əşyaları xüsusiyyətinə (forma, rəng, hərəkət, ölçü, səs, qoxu) görə müqayisə edir və qruplaşdırır.

---

[3]Ayaqlara su tökülməsi prosedurları fərqli temperaturlu su ilə təşkil edilir (34-35°, 2-3 gündən bir 1° azaldılaraq son temperatur 26-24°-dək endirilməli). İsti suyun temperaturu tədricən +40°-yə qədər qaldırılmalı, soyuq suyun temperaturu isə + 18°-dək ağaşı salınmalıdır.Yerli su prosedurlarında havanın temperaturu +20°-dən az olmamalıdır. Ümumi su prosedurlarında suyun ilkin temperaturu 34-35°, 2-3 gündən bir 1° azaldılaraq, son temperatur 24-22° -dək endirilməlidir. Hava vannası qəbul edərkən havanın temperaturu 23°-dən artıq olmamalıdır.

[4] Fiziki tapşırıqları, hərəkətli oyunları yerinə yetirərkən müstəqillik, yaradıcılıq, sürət, dözümlülük, çeviklik, cəldlik kimi keyfiyyətlər inkişaf edir.

***1.4. Təhlükəsizlik qaydalarına əməl edir.***

1.4.1. Təhlükəsizlik qaydalarına (kəsici, deşici, tez sınan, yandırıcı əşyalar, qaz, odun sobaları və elektrik cihazları ilə ehtiyatlı davranmaq; böyüklərin nəzarəti olmadan dərman qəbul etməmək; yol hərəkəti qaydalarına riayət etmək; tanış olmayan adamlar və sahibsiz heyvanlarla, dərman və kimyəvi maddələrlə ehtiyatla davranmaq; təbiət hadisələri zamanı, fövqəladə hallarda situasiyaya uyğun hərəkət etmək) əməl edir.

## Məktəbəhazırlıq qrupu (5-6 yaş)

**Uşaq:**

***1.1. Sağlamlığı möhkəmləndirən hərəkətləri yerinə yetirir.***

1.1.1. Fəaliyyətini fiziki tapşırıqların (gimnastika, hərəkətli oyun, gəzinti, növbətçilik) yerinə yetirilməsinə uyğunlaşdırır.

1.1.2. Orqanizmin möhkəmləndirilməsi prosedurlarından normalara[5] uyğun istifadə edir.

1.1.3. Sərbəst şəkildə özünəxidmət vərdişləri (tez və səliqəli soyunub, geyinmək; paltarlarını səliqə ilə yığmaq; yatağını səliqəyə salmaq) nümayiş etdirir.

***1.2. Qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir.***

1.2.1. Masa arxasında mədəni davranış qaydalarına (qamətini düz saxlamaq; qaşıq, bıçaq və çəngəldən istifadə etmək; səssiz və səliqəli yemək) əməl edir.

1.2.2. Şəxsi mədəni gigiyena qaydalarına (yeməkdən əvvəl, sonra və başqa ehtiyac olduqda əllərini sabunla yumaq və qurulamaq, yeməkdən sonra ağzını yaxalamaq, öz şəxsi əşyalarından – daraq, burun dəsmalı və salfetdən istifadə etmək, asqırıb, öskürərkən üzünü çevirib, ağzını və burnunu dəsmalla tutmaq) əməl edir.

---

[5] Ümumi su prosedurlarında suyun ilkin temperaturu 34-35°, 2-3 gündən bir 1° azaldılaraq, son temperatur 24-22°-dək endirilməlidir. Qış fəslində orta və böyük qruplarda bu proseduru +26° olan su ilə davam etdirmək olar.Hava vannası qəbul edərkən havanın temperaturu 23°-dən artıq olmamalıdır.

***1.3. Böyük, kiçik və hissi(sensor) motor hərəkətləri koordinasiya edir.***

1.3.1. Əsas hərəkətləri (qaməti düz saxlamaqla istiqaməti və tempi dəyişərək yeriş və qaçış; yerində, uzununa və müxtəlif istiqamətlərə hoppanma; müxtəlif əşyaların üstü, altı və arası ilə sürünmə; məhdudlaşmış sədd üzərində müvazinəti saxlamaqla yeriş və qaçış; gimnastika nərdivanına pillə-pillə dırmanma; topu yerə vuraraq irəliləmə; kürəciyi diyirlətmə; qum kisəciyini atma, topu hədəf atma) müstəqil yerinə yetirir.

1.3.2. Fəaliyyət zamanı hərəki qabiliyyətlər[6] nümayiş etdirir.

1.3.3. Əşyalardan (karandaşlar, flamaster, rəngli tabaşir, rəngli boya, mozaika, top, musiqi oyuncaqları, yapışqan, pazllar, qayçı, düymə), təbiət, tullantı və tikinti materiallarından təyinatına görə müstəqi istifadə edir.

1.3.4. Müxtəlif məsafələrdə olan əşyaları xüsusiyyətinə (forma, rəng, hərəkətlilik, ölçü, səs, dad və qoxusuna) görə istifadə edir.

***1.4. Təhlükəsizlik qaydalarına əməl edir.***

1.4.1. Sadə təhlükəsizlik qaydalarına (təhlükəli heyvan, bitki və əşyalar, dərman və kimyəvi preparatlarla müvafiq qaydada davranmaq; yol hərəkəti qaydalarına riayət etmək; situasiyaya uyğun yanğınsöndürən, təcili yardım və polisə cağırışlar etmək; özünə və başqalarına ilkin yardım göstərmək; təbiət və fövqəladə hadisələr zamanı ehtiyat tədbirləri görmək; məişətdə ehtiyatlı davranmaq) əməl edir.

---

[6] Uşaq şəxsiyyətinin hərtərəfli inkişafı təmin olunur. Onlarda təmkin, israr, qətiyyət, cəsarət, təşkilatçılıq, təşəbbüskarlıq, müstəqillik, yaradıcılıq və fantaziya kimi qabiliyyətlər inkişaf edir.

## 2. İdrakın inkişafı

### Orta qrup (3-4 yaş)

***Uşaq:***

***2.1. Nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir.***

2.1.1. Dinlədiyi fikrə əsasən hərəkətlərini tənzimləyir və reaksiya verir.

2.1.2. Danışığında 2-4 sözdən ibarət sadə cümlələrdən istifadə edir.

2.1.3. Sadə nitq etiketlərindən (“bəli”, “xeyr”, “salam”, “sağ ol”, “çox sağ ol”) istifadə edir.

2.1.4. Danışıq səslərini müxtəlif dil vahidlərində (heca, söz, cümlə) düzgün tələffüz edir.

2.1.5.Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

***2.2. Sadə riyazi təfəkkür əməliyyatları yerinə yetirir.***

2.2.1. Üç dairəsində sayma, hesablama əməliyyatları yerinə yetirir.

2.2.2. Həndəsi fiqurları (dairə, üçbucaq) tanıyır.

2.2.3. Əşyaları müəyyən əlamətinə (forma, ölçü, rəng, kəmiyyət) görə fərqləndirir və müqaisə edir.

2.2.4. Əşyalar, həndəsi fiqurlar və rəqəmlərlə sadə əməliyyatlar (toplama, az-çox, uzun-qısa, böyük-kiçik, hündür-alçaq) yerinə yetirir.

2.2.5. Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.

2.2.6. Əşyaların sayını müəyyən edə bilir və müvafiq rəqəm ilə əlaqələndirir.

2.2.7. Ətraf mühitdə gördüyü obyektlər haqqında məlumat toplamaq məqsədilə hisslərindən(baxmaq, eşitmək, toxunmaq, iyləmək, dadmaq) istifadə edir.

***2.3. Əşya və hadisələr haqqında ilkin təsəvvürə malik olur və anlayışları izah edir.***

2.3.1. Özü və ətrafdakılar haqqında təsəvvürlərini sualların köməyi ilə ifadə edir.

2.3.2. Baş verən hadisələrə aid suallar verir.

2.3.3. Canlı (insan, heyvan, quş, bitki) və cansız (qum, daş, torpaq, işıq) obyektləri tanıyır və adlandırır.

2.3.4. Problemin həllində sadə yolları tapır və onlardan istifadə edir.

2.3.5. Valideynlərini və yaxınlarını, özünə məxsus əşyaları (otaq, çarpayı, paltar, oyuncaq), yaşadığı yeri (kənd, qəsəbə, şəhər) adlandırır.

2.3.6. Əşya və hadisələr haqqında sadə təqdimatlar edir.

2.3.7. Gündəlik rast gəldiyi hadisələrdə səbəb-nəticə əlaqələrini müəyyən etmək üçün suallar verir və anladığını nümayiş etdirir.

## Böyük qrup (4-5 yaş)

**Uşaq:**

***2.1. Nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir.***

2.1.1. Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

2.1.2. 3-4 cümlədən ibarət mətn qurur.

2.1.3. Sadə nitq etiketlərindən ("bəli", "xeyr", "salam", "sağ ol", "çox sağ ol", "bağışla", "nuş olsun") istifadə edir.

2.1.4. Danışıq səslərinin müxtəlif dil vahidlərində (heca, söz, cümlə, mətn) yerini təyin edir.

2.1.5. Əlamət, keyfiyyət, hiss bildirən sözlərdən istifadə edir.

***2.2. Sadə riyazi təfəkkür əməliyyatları yerinə yetirir.***

2.2.1. Beş dairəsində sayma, hesablama və ölçmə əməliyyatları yerinə yetirir.

2.2.2. Həndəsi fiqurları (dairə, üçbucaq və kvadrat) tanıyır və onu əhatə edən mühitdə tapır və göstərir.

Təlim strategiyaları təlim prosesinin təşkilinə verilən tələbləri, istifadə edilən forma, üsul və vasitələri əhatə edir. Yeni kurikulumlarda təlim strategiyaları anlayışının işlənməsi və pedaqoji prosesin təşkilində ondan daha səmərəli şəkildə istifadə olunması, ilk növbədə, əsas pedaqoji anlayışlardan biri kimi təhsilin müasir tələblər baxımından izahını tələb edir. Təhsil sisteminin ilk pilləsi məktəbəqədər təhsildir. Gözlənilən nəticələri ilə fərqlənən bu pillə bir-birini tamamlayır və ardıcıl olmaqla təhsilin ümumi sistemini təşkil edir. Ona görə də təhsilə bir sistem kimi baxılır. Bu zaman demokratikləşmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, sosiallaşma, variativlilik, inteqrativlik və inkluzivlik aparıcı prinsiplər kimi əsas rol oynayır.

İnsanın sosiallaşma prosesində bəşəri və milli dəyərlərə yiyələnməsi müxtəlif fəaliyyət sahələrində həyata keçirildiyindən təhsilə həm də proses kimi yanaşılır. Onun didaktik əsasını qanunauyğunluq, təcrübilik, məqsədyönlülük, sistemlilik, fasiləsizlik, variativlik, mərhələlilik, fərdilik təşkil edir.

Təhsil həm də bütövlükdə tərbiyəçi, uşaq və valıdeynin birgə fəaliyyətinin yekunu olduğundan ona nəticə kimi baxılır, tam və mərhələli prosesin sonu kimi qiymətləndirilir.

Məktəbəqədər təhsilin proqramında (kurikulumunda) təlim strategiyaları aşağıdakı məsələləri əhatə edir:

- təlim prosesi və onun təşkili prinsipləri;
- təlimin təşkilində istifadə olunan forma və üsullar;
- təlimin planlaşdırılması.

## 2.1.Təlim prosesi və onun təşkili prinsipləri

Şəxsiyyətyönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi və uşaqların funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Tərbiyəçi təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt – subyekt" formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürünün, düşüncəsinin, tərbiyəçilər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olur. Tərbiyəçilərin rəhbərlik funksiyası dəyişir, informasiya vermək sahəsindəki fəaliyyəti məhdudlaşır. O daha çox qrup şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi uşaqların müstəqil idraki fəaliyyətini, yaradıcılığını təşkil edən subyektə çevrilir, uşaqlar isə müstəqil axtarışlar aparmağa, yaradıcı fəaliyyət göstərməyə sövq edilir.

Uşaqların fiziki inkişafına, sağlamlığına kömək etmək üçün aşağıdakı strategiyalar çox mühümdür. Bunlar hər bir uşağın unikal ehtiyaclarını təmin etmək, fiziki inkişafına kömək göstərmək baxımından əhəmiyyət daşıyır:

- hər bir uşağın sağlamlığı və təhlükəsizliyi üçün şəraitin yaradılması;
- uşaqların tibbi müayinə ilə təmin olunması;
- uşaqların optimal inkişafını artıran qidalanmanın təmin olunması;
- uşaqların sağlamlığını, fiziki forma və fəal hərəkətlərini artıran gündəlik şəraitin yaradılması;
- materialların bütün uşaqlar üçün asanlıqla əlçatan (hündürlük, ölçü, yerləşdirilmə) olması;
- məşğələlərin,nəğməli, açıq havada hərəkətli oyunların, mahnı oxunmasının, rəqs və digər mədəni baxımdan spesifik fəaliyyətlərin uşaqların gündəlik rejimlərinə daxil edilməsi;

• fiziki xüsusiyyətlər və eləcə də fərdi üstünlüklər haqqında müzakirələrin aparılması;

• risk faktorları və uşaqların hüquqlarının pozulması, onlara qarşı zorakılıq hallarının qarşısının alınması.

Uşaqların sosial və emosional inkişafı onların böyüdüyü və öyrəndiyi kontekstlərlə, mədəniyyət və münasibətlərlə bağlı olduğu üçün valideynlər və tərbiyəçilər uşaqların sosial və emosional inkişafının formalaşmasında əsas rol oynayırlar.

Aşağıdakı yanaşmalar hər bir uşağın öz unikal ehtiyaclarını ödəyən təcrübələr əldə etməsinə kömək edəcək:

• uşaqlara qarşı həssas, məsuliyyətli və qayğıkeş olmaq;

• uşaqlara öz emosiyalarını başa düşmək və idarə etməkdə kömək etmək;

• müxtəlifliyi bildirən, mədəniyyət baxımından münasib fəaliyyətlər, təcrübə və materiallar toplusundan istifadə etmək;

• ailə mədəniyyətinin qəbul edilməsinə və yüksək qiymətləndirilməsinə dəstək vermək və ailələrlə əməkdaşlıq qurmaq;

• insanlara hörmət edən və mənfi rəylərdən azad mühit yaratmaq;

• qarşılıqlı münasibətlər qurmaq üçün davamlı şərait təşkil etmək;

• uşaqların nəyi bildiyinə və nəyi yaxşı bacardığına əsaslanmaq;

• münaqişənin və problemlərin həlli bacarıqlarının modelini yaratmaq və uşaqlara öyrətmək.

• telim prosesi uşağa yönəlmiş olmalı,yəni uşağın maraq, ehtiyac, inkişaf səviyyəsi, imkanları, ailə mədəniyyəti və s. nəzərə almaq.

Hər bir uşaq özünün fiziki və sosial dünyasında müxtəlif yollarla ümumi biliklər əldə edir. Mahiyyət etibarilə, hər bir uşaq özünün ünsiyyət, dil və savadlılıq, zəruri həyati bacarıqlarının inkişaf etdirilməsinə dəstək və kömək üçün ehtiyac duyur. İdrakın

inkişafına kömək etmək üçün aşağıdakı strategiyaların nəzərə alınması tövsiyə olunur:

- uşaqların gündəlik həyati bacarıqlara yiyələnmələri üçün şəraitin təşkil edilməsi;
- öyrətmə və öyrənmə strategiyalarının (məsələn, nəğməli oyunlar, musiqi və hərəkətləri idraki inkişafla əlaqələndirmək) birləşdirilməsi;
- mürəkkəb tapşırıqların daha kiçik hissələrə bölünməsi ilə və ya tədbirlərin sayının azaldılması ilə sadələşdirilməsi;
- gün ərzində uşaqların müxtəlif fəaliyyətlərə və çevik rejimlərə cəlb edilməsi;
- öyrənmə üçün praktiki və sensor (məsələn, öyrənmə, görmə, dadına baxma, iyləmə və manipulyasiya etmə) təcrübənin təmin edilməsi;
- təlimin uşaqların müxtəlif qabiliyyətləri və öyrənmə yolları ilə uzlaşdırılması.

Uşaqların estetik inkişafını təmin etmək üçün aşağıdakı strategiyalara istinad edilməsi məqsədəmüvafiqdir:

- yaradıcılığa həvəsləndirən müvafiq mühitin yaradılması;
- rəqs, musiqi, rəsm, yapma və s. kimi müxtəlif incəsənət növlərindən istifadə edilməsi;
- qiymətləndirmə bacarığının yaradılması;
- uşaqların incəsənət nümunələri vasitəsilə özünü ifadə etməyə həvəsləndirilməsi;
- uşaqların fəal şəkildə öyrənməsi, təsəvvür etməsi və yaradıcılıq fəaliyyəti göstərməsi üçün qrup otağında şəraitin yaradılması;
- yaradıcı düşünməni və özünüifadəni asanlaşdırmaq üçün tərbiyəçinin uşaqlarla interaktiv fəaliyyətinin yaradılması;
- estetik inkişafın təmin edilməsi üçün ailələrin maarıflən-dirilməsi;

Təlim prosesində aşağıdakı prinsiplərə istinad edilir:

***Şəxsiyyətyönümlülük***. Şəxsiyyətyönümlülük uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı tələb edir. Həyatda lazım olan ən zəruri

dəyərlərin formalaşdırılmasını bir vəzifə kimi qarşıya qoyur. Bu iş məktəbəqədər təhsil mərhələsindən başlayır. Ona görə də təlimin məzmununda və həyata keçirilməsində onun nəzərə alınması vacib hesab edilir.

***Differensiallaşdırma və fərdiləşdirmə.*** Bu prinsip uşaqların fərdi xüsusiyyətlərini, maraq və tələbatlarını, fiziki və əqli inkişaf səviyyələrini, psixo-fizioloji xüsusiyyətlərini nəzərə almağı, onların təliminin bu xüsisiyyətlər əsasında təşkil olunmasını tələb edir.

***İdrak fəallığı.*** Idrak fəallığı məktəbəqədər təhsil materiallarının koqnitiv xarakter daşımasına, onun fəal təlim şəraitində reallaşdırılmasına imkan yaradır, uşaqlarda hər hansı problemin həlli tələbatını, onlarda idrak proseslərinin fəallaşdırılmasını gücləndirir.

***Əyanilik.*** Bu prinsip məktəbəqədər təhsil müəssisələrində uşaqların öyrənməyə olan marağını stimullaşdırır, öyrəndiklərinin daha keyfiyyətli mənimsənilməsinə şərait yaradır.

***Əməkdaşlıq.*** "Tərbiyəçi-uşaq və valideyn" münasibətlərində qarşılıqlı fəaliyyətin təmin olunmasını nəzərdə tutur.

***Nəticəyönümlülük***. Bu prinsip fəaliyyətin əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulmasını tələb edir.

## 2.2. Təlimin təşkili, istifadə olunan forma və üsullar.

### İnkişafetdirici mühitin mahiyyəti və prinsipləri

Təlim mühiti uşaqların təfəkkür, sosial, emosional, fiziki və yaradıcı inkişafına böyük təsir göstərir. Tərbiyəçilər fiziki və psixoloji baxımdan təhlükəsiz və həvəsləndirici mühit yaradaraq uşaqların müstəqil və qrup layihələri, oyun, müxtəlif vasitələr və digər uşaqlarla və böyüklərlə qarşılıqlı əlaqə vasitəsilə inkişafı dəstəkləyirlər.

Uşaqyönümlü mühitin yaradılması işində aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

• Uşaqların ətraf mühitdə olan əşyalar və onları əhatə edən insanlarla qarşılıqlı əlaqə quraraq öyrənməsi və biliklər qazanması.

• Uşaqların inkişafını və öyrənməsini təmin etmək üçün onların maraq, ehtiyac və güclü tərəflərinin nəzərə alınması.

Elementar tədqiqatların aparılması, yeniliklərin kəşf edilməsi və fikir mübadiləsinə şərait yaradan mühitin qurulması məsuliyyəti tərbiyəçilərin üzərinə düşür. Belə mühitdə tərbiyəçinin rolu uşaqların özünüifadəsini dəstəkləməkdən, arzu olunan davranış və şəxsi keyfiyyətlərin: "niyə?", "nə üçün?" suallarının verilməsinin, ətrafdakılara qarşı hörmət və qayğının göstərilməsinin, məsuliyyət hissinin təmin olunmasından ibarətdir.

Uşaqyönümlü inkişafetdirici mühitdə tərbiyəçi uşaqların irəli sürdükləri fikirlərə, təşəbbüslərə hörmət və diqqətlə yanaşır, onları məşğələlərin planlaşdırılması və həyata keçirilməsi zamanı nəzərə alır. Təşəbbüskar uşaqlar dəstəklənir, bir qədər çəkinən və passiv olan uşaqlar isə təşəbbüs göstərməyə həvəsləndirilir. Bunun üçün tərbiyəçi "sən nə ilə məşğul olmaq istəyərdin?", "sən nə fikirləşirsən?", "çəkdiyin şəklin mənasını mənə başa sal" və s. kimi sual və təkliflərlə uşaqları fəallaşdıra bilər. Uşaqlar yalnız eşitmək və deyilən kimi hərəkət etmək deyil, fikir yürütmək, faktlar axtarmaq, səbəb-nəticə əlaqələrini soruşmaq, izah etmək və qurmaq, sadə tədqiqatlar aparmaq, həmyaşıdları ilə ünsiyyət qurmaq, fəaliyyəti marağına görə seçmək və sərbəst davranmaq hüquqlarına malikdirlər.

İnkişafetdirici və dəstəkləyici mühitin yaradılması üçün məktəbəqədər təhsil müəssisələrində müxtəlif guşələr (fəaliyyət mərkəzləri) təşkil olunur. Bu guşələr inkişaf sahələr üzrə qurulur və uşağın butun inkişafını təmin edir.

Guşələr aşağıdakı şərtlər nəzərə alınmaqla tərtib olunur:

1.Uşaqların maraq və inkişaf ehtiyacları.

2.Məktəbəqədər təhsil müəssisələrində mövcud olan təlim resursları.

Fəaliyyət mərkəzləri (guşələr) dedikdə, əsasən, aşağıdakılar nəzərdə tutulur:

• riyaziyyat guşəsi;

- kitab  guşəsi;
- stolüstü oyunlar guşəsi;
- elm guşəsi;
- təsviri fəaliyyət guşəsi;
- qum və su guşəsi;
- tikinti materialları guşəsi;
- sujetli-rollu oyunlar guşəsi;
- məişət-təsərrüfat guşəsi;
- milli guşə;
- gəlincik guşəsi;
- nəqliyyat guşəsi;
- təbiət guşəsi;
- əl əməyi (məktəbəhazırlıq qrupunda) guşəsi.

Bu materiallar həm dövlət tərəfindən verilir, həm də tərbiyəçi, valideyn və uşaqlar tərəfindən  hazırlanır.

Fəaliyyət mərkəzləri bir-birindən ayrı təşkil edilir, xüsusi materiallarla təchiz olunur. Mərkəzlərdə qoyulan materiallar (kitablar, oyuncaqlar, həndəsi fiqurlar, oyuncaq qablar, mətbəxə aid oyuncaqlar, kağız, qələmlər, karton, boyalar, plastilin, pazllar, müxtəlif bitkilər, yarpaqlar) uşaqların əli çatan vəziyyətdə qoyulmalıdır və uşaqlar həmin materiallarla yaradıcı və müstəqil davranmağa həvəsləndirilməlidir. Fəaliyyət mərkəzləri (guşələr) elə yaradılmalıdır ki, orada uşaqlar kiçik qruplarda bir-birilə oynayıb ünsiyyət qura, istədikləri fəaliyyət mərkəzlərini özləri seçə bilsinlər. Həm də fəaliyyət mərkəzlərində uşaqlar qrupda birgə oynamaq və əməkdaşlıq etməyi öyrənirlər.

Dəstəkləyici təlim mühiti uşaqların müstəqilliyinə imkan yaradır, onların təhsil uğurunun təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

## Təlim mühitinin xarakteristikası:

- Bütün uşaqlar üçün səmimi mühit olmalıdır.

- Mühit cəlbedici və zövqlü olmalıdır.
- Mühit dəstəkləyici olmalı, ünsiyyət və əməkdaşlığı təmin etməlidir.
- Bütün uşaqlar kifayət qədər materiallarla təmin olunmalıdır.
- Uşaqların materialı müstəqil tapması, istifadə etməsi və qaytarmasına imkan yaradılmalıdır.
- Mühit müxtəlif oyun növlərinə həvəs yaratmalıdır.
- Mühit uşağın qrup otağının bütün tərəflərini görməsinə və asanlıqla hərəkət etməsinə imkan verməlidir.
- Uşaqların material və vəsaitləri bir sahədən digər sahəyə gətirərək oyun zamanı onlardan istifadə edə bilməsi təmin edilməlidir.

Məktəbəqədər müəssisədə təhsilin səmərəli qurulması üçün psixososioloji mühit təlimə uyğun olmalı və uşaqların öyrənmə prosesində ünsiyyət və əlaqə yaratmasına imkan verməlidir.

**Təlim mühitinin yaradılmasının əhəmiyyəti:**

- Tərbiyəçinin mədəni və müsbət davranışı uşaq fəaliyyətinə təsir edir.
- Yeni materialların davamlı və fərqli istifadəsi təlimə həvəs yaradır.
- Təlim mühitinin fərqli təşkili səmərəli fərdi təlim üçün vacib hesab edilir.
- Müxtəlif fəaliyyətlər yadasalma qabiliyyətinin inkişaf etdirilməsi və müvafiq təlim mühitinin yaradılması üçün istifadə edilə bilər.
- Resurslar məqsədəuyğun, istifadəyə yararlı, müəyyənedici və uşağın təliminə uyğun olmalıdır.

Uşaq inkişaf və təlim prosesinin fəal iştirakçısıdır. Müasir təlim tələb edir ki, məlumat uşağa valideyn və ya tərbiyəçi tərəfindən hazır ötürülməsin, uşaq məlumatı tərbiyəçinin yönəldici fəaliyyəti ilə biliyin əldə edilməsi prosesində iştirak edərək, özü qazansın.

Biliyin əldə edilməsinin əsasını təşkil edən bacarıqlar təcrübə prosesində təkmiləşdirilir. Buna görə də uşaqlara ətraf mühitdə biliklərin araşdırma yolu ilə əldə edilməsi imkanını, eyni zamanda, əşyalar və modellərin imitasiyası imkanını vermək çox vacibdir. Beləliklə, məşğələlər zamanı uşaqlara ətraf mühiti təcrübi yolla dərk etmək, müxtəlif fəaliyyətlər həyata keçirmək, məsələlərin həllində iştirak etmək, danışıq və ünsiyyət vərdişlərini inkişaf etdirmək imkanı vermək olduqca zəruridir. Məktəbəqədər yaşlı uşaqların inkişafını təmin etmək üçün ayrı-ayrılıqda oxu, yazı və riyazi anlayışların təliminə və əzbərçiliyə həddən artıq əhəmiyyət vermək lazım deyil. Evdə və məktəbəqədər təhsil müəssisələrində uşaq üçün rəngarəng fəaliyyətlər planlaşdırılmalıdır. Əsas uşaqların nəyi bilmələri deyil, nə etməyi bacardıqları və nəyi müstəqil öyrəndikləridir. Daha doğrusu, öyrənmə və düşünmə bacarıqlarının təkmilləşdirilməsidir.

Fəal öyrənmə prosesi uşaqların ətrafdakı insanlar və əşyalarla qarşılıqlı təsiri nəticəsində baş verir. Böyüklərin uşağın inkişafını dəstəkləmələrində rolu özlərinin bu prosesdə birgə iştirakı ilə əlverişli emosional şərait yaratmaqdan ibarətdir. Bu zaman uşaqlara əşyalarla manipulyasiya etmək, seçim etmək, əşya və ideyaları "tədqiq" etmək, eksperiment aparmaq və "kəşflər etmək" imkanı vermək mümkündür. Bu zaman uşaqlar həm öz həmyaşıdları ilə, həm də böyüklərlə təhlükəsiz və xoş mühitdə ünsiyyət qurmaq imkanı qazana bilirlər.

Fəal təlim metodları üzərində qurulan məşğələ ənənəvi məşğələlərdən fərqlənir. Bu məşğələlər uşaqların sərbəst şəraitdə fəaliyyət göstərməsinə imkan yaradır və bu zaman onlar özlərinin bütün bilik, bacarıq və istedadlarını nümayiş etdirə bilmək imkanı əldə edirlər. Fəal təlim məktəbəqədər yaşlı uşaqların inkişaf etdirilməsi üçün ən yaxşı texnologiyadır. Bu o deməkdir ki, uşaqlar təlim prosesində passiv deyil, konkret materiallarla və əhatəsində olan insanlarla fəal, qarşılıqlı ünsiyyətdə olurlar.

Fəal təlim metodlarından istifadə tədris prosesinin təşkilinə, tərbiyəçi-uşaq münasibətlərinə yeni məzmun gətirir, tərbiyəçi-uşaq münasibətlərinin dəyişdirilməsini, onlar arasında pedaqoji əməkdaşlığa, qarşılıqlı hörmətə, bir-birinin ləyaqətinə, hüquq və azadlıqlarına hörmət etməyə əsaslanan yeni münasibətlərin yaradılmasını təmin edir.

Məktəbəqədər təhsil müəssisələrində fəal təlim metodlarları ilə aparılan məşğələlərin əsasən üç mərhələli strukturla həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

1. **Aktuallaşdırma və ya motivasiya** (mövcud biliklərin səsləndirilməsi və marağın yaradılması);
2. **Dərketmə** (yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi);
3. **Düşünmə** (qazanılmış bilik və bacarıqların yaradıcı tətbiqedilməsi).

***Aktuallaşdırma və ya motivasiya.*** Məşğələ aktuallaşdırma, yəni mövcud biliklərin aşkara çıxarılıb səsləndirilməsi ilə başlayır. Əgər motivasiya yaratmaq çətin və ya mümkün deyilsə, o zaman aktuallaşdırma ən yaxşı çıxış yoludur. Əlbəttə motivasiya ilə başlanan məşğələ daha cəlbedici olur, lakin hər mövzu üçün maraqlı və cəlbedici motivasiya qurmaq olmur deyə hərdən aktuallaşdırmadan istifadə etmək yerinə düşür. Motivasiya "motiv" sözündən götürülmüşdür. Latın dilində tərcüməsi "hərəkətə gətirmək", "itələmək" deməkdir. Məşğələ motivasiya ilə başlanır. (Yəni tərbiyəçi tərəfindən problemin qoyulması, uşaq tərəfindən fərziyyələrin irəli sürülməsi). Deməli, tərbiyəçi motivasiya yaradarkən uşaqları hərəkətə gətirir, düşünməyə "itələyir". Düzgün qoyulmuş motivasiya uşaqda fəallıq yaradan səbəbdir.

Motivasiyanı necə qurmaq lazımdır?

- Diqqəti cəlb etmək və uşağı maraqlandırmaq.
- Müxtəlif fərziyyələrə səbəb olan vəziyyət yaratmaq.
- Müstəqil tədqiqata həvəsləndirmək.

• Məktəbəqədər yaşlı uşağın imkanlarına müvafiqliyi nəzərə almaq.

• Uşağı öz bacarığını həyata keçirməyə sövq etmək.

***Dərketmə*** yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi, tapşırıqları həll etmə prosesində məlumatların, faktların axtarılması və toplanmasıdır. Verilmiş işi yerinə yetirmək üçün uşaqlar iş formasından asılı olaraq qruplarla və ya cütlərlə, öz aralarında fikir mübadiləsi edir, tədqiqat aparır, birgə işləyirlər. Bu zaman cütlər və ya qruplarla işləyən uşaqlar öz aralarında seçdikləri lider vasitəsilə verilmiş tapşırıqla bağlı ümumi fikri bütün qrupa və tərbiyəçiyə çatdırırlar.

***Düşünmə*** qazanılmış bilik və bacarıqların yaradıcı tətbiq edilməsidir. Uşaqların əldə etdikləri bilik və bacarıqları möhkəmləndirir, praktik əhəmiyyətini artırır. Bu məqsədlə uşaqlara praktik tapşırıq verilir. Məktəbəqədər yaş dövründə əsas fəaliyyət növü oyun olduğu üçün tətbiqetmə zamanı mövzuya uyğun oyundan istifadə edilməsi məqsədəmüvafiqdir.

Hər bir məşğələnin sonunda məşğələ ümumiləşdirilir.

## İş formaları.

İş formaları dedikdə fərdi, cütlərlə, qruplarla və kollektiv iş nəzərdə tutulur.

***Fərdi iş*** uşaqların potensial imkanlarının müəyyənləşdirilməsi və onların müstəqil fəaliyyət göstərməsi üçün imkan yaradır.

***Cütlərlə iş*** zamanı uşaqların hər hansı problemin həllində biri-birinə köməklik göstərmələrinə, əməkdaşlıq etmələrinə, bir-birlərinin qarşısında öz məsuliyyətlərini dərk etmələrinə imkan yaranır.

***Qruplarla iş*** (3-4 nəfər) zamanı uşaqlar kiçik qruplarda birləşir, işin gedişində əməkdaşlıq və müxtəlif problemləri bir yerdə həll etməyə cəlb olunurlar. Bu zaman uşaqlar müstəqil fikir söyləmək, digərlərini dinləmək imkanı əldə edirlər.

***Kollektiv iş*** zamanı kollektivdə işləmək, birgə fəaliyyət göstərmək və kommunikativ bacarıqların inkişafı təmin edilir.

## Fəal təlim üsulları.

Təhsildə yaradıcı düşünən, müstəqil mühakimə yürüdə bilən demokratik dünyagörüşünə malik şəxsiyyət formalaşdırmaqda geniş imkanları olan əqli hücum, rollu oyunlar, söz assosiasiyası, tap-tapmaca, müzakirə, nağıletmə, diskussiya, suallar, şaxələndirmə (klaster), problemli vəziyyət kimi təlim üsullarından istifadə edildikdə müsbət nəticələr əldə etmək mümkündür.

***Əqli hücum.*** Birgə səy nəticəsində konkret problemin bir neçə həllinin işlənib hazırlanması, məhdud vaxt ərzində bütün uşaqların problemlə bağlı ideyalarının toplanması, dayaq biliklərinin fəallaşdırılması və ya təlim fəaliyyətinin stimullaşdırılmasıdır. Əqli hücüm uşaqlara öz fikirlərini sərbəst ifadə etmək imkanı verir və fikrin müxtəlifliyinin zəruriliyini başa düşmək üçün şərait yaradır.

Bu üsuldan məşğələlərdə problemli situasiya, fikir müxtəlifliyi yaratmaq və həlli yollarını tapmaq üçün tətbiq olunur. Belə şəraitdə uşaq düşünməli olur, yoldaşlarının dedikləri ilə razılaşmadıqda öz mövqeyini bildirir. Bu mövqe onun əvvəllər əldə etdiyi biliklər əsasında yaranır, düşüncə tərzi kimi formalaşır. Bəzən bu fikir dəqiq olmur, lakin o uşaqların fəallığı baxımından didaktik əhəmiyyət daşıyır. Uşaqların fəallığının artırılmasına və onlar tərəfindən ideyaların irəli sürülməsinə imkan yaradır. Bu üsuldan, demək olar ki, bütün məşğələlərdə istifadə etmək mümkündür.

***Tap-tapmaca.*** Oyun-tapmaca formasında keçirilən bu üsul uşaqlarda yüksək fəallıq yaradır. Tərbiyəçi lövhədə dairəvi kart asır, onun arxasında yeni mövzu üzrə "açar söz" mahiyyəti daşıyan anlayışın şəkli yapışdırılır. Kartın şəkil olmayan tərəfi uşaqlara tərəf asılır. Uşaqlara şəklin arxasında gizlədilmiş anlayışın xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalanır. Yaxud lövhəyə kartın yanında həmin anlayışa aid şəkillər yapışdırılır. Uşaqlar həmin şəkillərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar (Məsələn, qış fəslinə aid qar, şaxta baba və s.). Uşaqlar anlayışı tapmaqda çətinlik çəksələr, əlavə olaraq yeni xüsusiyyətlər sadalanır. Uşaqlar öz fərziyyələrini dedikdən sonra tərbiyəçi kartı çevirir. Anlayışın

düzgün tapılmasında fəallıq göstərənlər qeyd olunur. Çətinlik çəkənlərə öz fikirlərini əsaslandırmaq üçün imkan yaradılır.

***Nağıletmə.*** Nağıletmə məlumatın tərbiyəçidən uşağa ötürülməsi və dinləmə bacarıqlarının inkişafı üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa nağıletmə 10-15 dəqiqə ərzində aparılır. Nağıletmə ilə bağlı aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılır.

- Nağıletmənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək.
- Nağıletmə zamanı ardıcıllığı gözləmək.
- Nağıletmədə süjetli şəkillərdən istifadə etmək.
- Digər əyani və texniki vasitələrdən istifadə etmək.

Tərbiyəçi məlumatın ötürülmə prosesini verbal (suallar vermək) və vizual (uşaqların sifətlərinin ifadəsini və jestlərini müşahidə etməklə) tənzimləyir.

***Müzakirə.*** Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır.

Uşaqların ünsiyyət, kommunikativ bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır. Uşaqlar sual və replikalarla müzakirələrə qoşulur, fakt və hadisələrdən istifadə etməklə inandırıcı nitq nümayiş etdirirlər. Qazandıqları bilik və bacarıqları təcrübədə tətbiq etmək imkanı əldə edirlər.

Müzakirə apararkən əvvəlcədən uşaqlara müzakirə qaydaları deyilir. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və uşaqların cavablarını nəzərdən keçirməklə tərbiyəçi müzakirəni tənzimləyir. Bu zaman cavabı "Bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir. Müzakirədə mövzuya aid "Nə baş verdi? Nə üçün baş verdi? Bu, başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin obraz nə hiss etdi? Siz bu şəraitdə

nə hiss edərdiniz? Bu, düz idimi? Nə üçün?" kimi suallardan istifadə olunur. Bu təlim üsulundan böyük və məktəbəhazırlıq qruplarında istifadə edilir.

***Şaxələndirmə (klaster).*** Tərbiyəçi tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yapışdırılmış şəkil ilə bağlı söz və ya ifadələr söyləmək uşaqlara tapşırılır. Mərkəzdə yapışdırılmış şəkildən başlayaraq hər növbəti şəkil onunla əlaqəli şəkillərlə xətlərlə birləşdirilir. Məşğələnin sonunda alınan şaxələndirməyə əsasən ümumiləşdirmə aparılır. Bu üsuldan məktəbəhazırlıq qruplarında istifadə oluna bilər.

***Problemli vəziyyət.*** Bu üsul tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Tərbiyəçi əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Uşaqlar 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət təsvir olunmuş vərəqlər uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra qrupda ümumi müzakirə aparılır.

***Sujetli-rollu oyunlar.*** Rollu oyunlar hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul uşaqlara hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözu ilə baxmaq imkanı verir. Oyun prosesində uşaqlar rola girir, mövcud vəziyyəti başqasının gözü ilə görürlər. Təlim prosesinə belə oyun elementlərinin gətirilməsi onun maraqlılığını, uşaqların yaradıcı fəaliyyət göstərməsi imkanlarını genişləndirir.

***Suallar.*** Uşaqların idrak fəallığının artırılmasında böyük rol oynayır.

Sualların sayının 4-5 arasında olması məqsədəuyğundur. Sualların qoyuluşu tənqidi təfəkkürün inkişafına doğru yönəldilməli, məntiqi ardıcıllıq gözlənilməli, məzmun və mövzu ilə bilavasitə əlaqəli olmalıdır.

## 2.3. İnkişaf sahələri üzrə təlimin planlaşdırılması

Məktəbəqədər təhsil müəssisələrində təlimin səmərəli təşkili işin düzgün planlaşdırılmasından başlayır. Düzgün planlaşdırma üçün yerinə yetiriləcək təlim işlərinin əvvəlcədən layihələşdirilməsi xüsusi didaktik əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində planlaşdırmanın, əsasən, aşağıdakı iki növündən istifadə edilməsi zəruri hesab edilir:

- İllik (perspektiv) planlaşdırma.
- Həftəlik (cari) planlaşdırma.

İllik (perspektiv) planlaşdırma standartların reallaşması məqsədilə inkişaf sahələrinə əsasən hər yaş qrupu üçün işin planlaşdırılması üzrə aparılır. Məktəbəqədər təhsil proqramının (kurikulumunun) əsas istiqamətlərinə müvafiq olaraq müəyyənləşdirilmiş həmin sahələrin planlaşdırılmasında inteqrativlık prinsipi ciddi şəkildə gözlənilir.

### İllik (perspektiv) planlaşdırma aşağıdakı nümunəvi sxem üzrə aparılır

| Standartlar | Məşğələnin növü | Bölmə | Mövzular | İnteqrasiya | Resurslar | Tarix |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

Həftəlik (cari) planlaşdırma alt standartların həyata keçirilməsi məqsədilə ayrı-ayrı məşğələlər və məşğələdənkənar fəaliyyət sahələri (oyun, gəzinti, əyləncə, sağlamlaşdırıcı tədbirlər və s.) üzrə aparılır.

***Məşğələlərin həftəlik planlaşdırılması aşağıdakı göstəricilər əsasında hazırlanır:***

- ***Standart:***
- ***Mövzu:***
- ***Məqsəd:***

- ***İnteqrasiya:***
- ***İş forması:***
- ***Üsullar:***
- ***Resurslar.***

***Məşğələnin mərhələləri***

- ***Motivasiya;***
- ***Dərketmə;***
- ***Düşünmə.***

*Hər bir məşğələnin sonunda tərbiyəçi məşğələni ümumiləşdirir.*

## ***MƏŞĞƏLƏ NÜMUNƏSİ.*** (4-5 YAŞ)

Standart: 2.3.3. Canlı və cansız aləmin obyektlərini (insan, **heyvan,** quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

Mövzu: Ev heyvanları

Təlim nəticələri:

-*Ev heyvanlarını adlandırır.*

- *Ev heyvanlarını əlamətlərinə görə fərqləndirir.*

-*Ev heyvanlarının faydasını öyrəndiyini nümayiş etdirir.*

- *Fikrini bütöv cümlələrlə rabitəli söyləyir.*

İnteqrasiya: İdrak fəaliyyəti 2.1.5. Əlamət, keyfiyyət, hiss bildirən sözlərdən istifadə edir. Sosial-emosional inkişaf. 4.2.2. Qrupun üzvü kimi fəaliyyət göstərməyə təşəbbüs edir.

İş üsulu: Əqli hücum, müzakirə, suallar.

İş forması: Kollektiv və qruplarla iş.

Resurslar: Ev heyvanlarının şəkilləri, tablo və ya proyektor, oyun üçün atributlar, qələm, paylayıcı vəsait, DVD.

**Məşğələnin gedişi**

***I mərhələ.* Aktuallaşdırma və ya motivasiya:**

Tərbiyəçi uşaqların diqqətini tabloda dairəvi şəkildə təsvir olunmuş vəhşi heyvan şəkillərinə ***(canavar, ayı, pələng, tülkü)*** cəlb

edir:*-Bunlar hansı heyvanlardır? Bu heyvanlar harada yaşayır? -* kimi suallarla müraciət edir. Tərbiyəçi müvafiq cavab aldıqdan sonra uşaqların diqqətini həmin tablonun ortasında üzəri kağızla örtülmüş hissəyə cəlb edib, deyir:

-Uşaqlar, burada da heyvanların şəkilləri var. Onların hansı heyvan olduqlarını bilmək üçün gəlin əvvəlcə onların səsini dinləyək. (səsləndirir):

***- Hansı heyvanların səsini eşidirsiniz?***

Uşaqlar heyvanların adını çəkir. Tərbiyəçi bu dəfə onlara səsi təsvirlə birlikdə ***(at, it, inək, pişik, qoyun, keçi)*** nümayiş etdirir. Bir daha bu heyvanları adlandırmağı təklif edir. Tərbiyəçi uşaqlardan mümkün cavabları alır və onlara tapmaca söyləyir:

***Saqqalı uzun sallanar,***
***Dağa, daşa dırmanar.*** (keçi)

***Altı bulaq-içərlər,***
***Üstü zəmi-biçərlər.*** (qoyun)

***Evimizdə bir kişi var,***
***Xor-xor yatışı var.*** (pişik)

***O hansı heyvandır ki,***
***Yarışlarda qalibdir.***
***Keçmişdə döyüşlərdə***
***Qəhrəmana köməkdir?*** (At)

***O nədir ki ,evə girməz,***
***Sədaqəti eldə gəzər?*** (İt)

və s.

Cavab düzgün tapılanda həmin heyvanın təsviri ekrana (və ya göstərilir) gəlir.

Bu heyvanlar harada yaşayır?

***II mərhələ.*** **Dərketmə mərhələsi:** ***Bu heyvanları necə adlandırmaq olar?***

Cavab aldıqdan sonra tərbiyəçi bir daha həmin heyvanların şəkillərini göstərir və aşağıdakı suallarla uşaqlara müraciət edir:

• *Nə üçün bu heyvanları ev heyvanları adlandırırlar?*

• *İnsanlar ev heyvanlarını nə üçün saxlayırlar?*

Ev heyvanlarının xarakter əlamətləri, qidalanması və faydası haqqında məlumat verir.

• İnək, qoyun və keçi- süd verir, samanla qidalanır, insanlar onların əti və südündən faydalanır. Qoyunun yunundan yorğan, döşək hazırlanır.

• İt- ev heyvanıdır, sahibinə sadiqdir, gəzib-dolaşmağı sevir, ət və ət məhsulları ilə qidalanır.

• Pişik- ev heyvanıdır, çox tənbəldir, istini, yatmağı və yeməyi çox sevir, siçanları tutur.

• At və ulaq (eşşək) - saman və otla qidalanır, atlar yarışlarda iştirak edir, hər ikisindən yük daşımada və nəqliyyat vasitəsi kimi istifadə edilir.

- ***İdman dəqiqəsi. Musiqi sədaları ltında ritmik hərəkətlər.***
- Gəlin addımlayaq biz *(addımlayırlar)*
- Ondan sonra əl çalaq. *(əl çalırlar).*
- Başımızı tərpədək, *(başlarını yırğalayırlar)*
- Əllərimizi qaldıraq *(əllər yuxarı)*
- Sonra aşağı salaq.
- Bir, iki, üç
- Yerimizdə qaçırıq.

***III mərhələ.*** **Düşünmə mərhələsi.**

Uşaqlar qruplara bölünür. Hər qrupa aşağıdakı tapşırıq testlər verilir.

**I qrup:** Uşaqlara ***inək, pişik, qoyun, keçi, it, eşşək*** təsviri olan kağızlar paylanır və bu heyvanlardan hansının südünün içildiyini müəyyənləşdirərək, kiçik kvadratda qeyd etmək tapşırığı verilir.

**II qrup:** Uşaqlara ***inək, pişik, qoyun, it*** təsviri olan kağızlar paylanır və bu heyvanlardan hansının əti yeyildiyini müəyyənləşdirərək, kiçik kvadratda qeyd etmək tapşırığı verilir.

**III qrup:** Uşaqlara ***inək, pişik, qoyun, at, keçi, it, eşşək*** təsviri olan kağızlar paylanır və bu heyvanlardan hansının ət ilə qidalandığını müəyyənləşdirərək, kiçik kvadratda qeyd etmək tapşırığı verilir.

**IV qrup:** Uşaqlara ***inək, pişik, qoyun, at, keçi, it, eşşək*** təsviri olan kağızlar paylanır və bu heyvanlardan hansının ot ilə qidalandığını müəyyənləşdirərək, kiçik kvadratda qeyd etmək tapşırığı verilir.

Hər qrupdan bir uşaq təqdimat edir. Qruplar biri-birinin işi ilə tanış olur, fikir mübadiləsi edirlər.

Tərbiyəçi oyun keçirir. Qrup otağında bir tərəfə ot, digər tərəfə ət qoyur. Sonra uşaqlara stolun üstünə qoyulmuş ev heyvanlarının təsviri olan atributları götürüb başlarına taxırlar. Sonra uşaqlara müraciət edərək, həmin heyvanın qidasının ətrafında dayanmağı təklif edir. Hər uşaq onda olan təsvirə əsasən həmin heyvan haqqında danışır (Onun səsini təqlid edir, qadalanması, insanlara faydası haqqında danışır).

Məşğələnin sonunda tərbiyəçi məşğələni ümumiləşdirib, yekunlaşdırır.

## 2.4. Ailələrlə əməkdaşlıq.

Uşaq məktəbəqədər təhsil müəssisəsinə gələnə qədər ailədə müəyyən bilik, bacarıq və vərdişlərə yiyələnir. Ona görə də ailə uşağın ilk tərbiyəçisi hesab olunur. Ailənin uşağın ilk tərbiyəçisi kimi qəbul edilməsi gələcəkdə təlim-tərbiyə prosesinin məzmunlu qurulması, əlverişli münasibətlərin yaranması üçün vacib amildir. Validеyn və tərbiyəçilərin ümumi səyləri uşaq haqqında məlumat-

ların əldə olunmasına, uşağın davranışı, rəftarı, münasibətləri ilə bağlı fikir və mülahizələrin bölüşdürülməsinə, ən əsası, uşağın böyüməsi və inkişafı üçün daha əlverişli şəraitin yaradılmasına yönəldilir.

Ailə uşağın doğulduğu, böyüdüyü və tərbiyə aldığı ilk ictimai-mədəni ocaq olduğundan tərbiyəçilər hər bir ailənin mədəni dəyərlərinə də hörmətlə yanaşır, öz münasibətlərində bu amili diqqət mərkəzində saxlayır. Tərbiyəçilər uşaqların ailəsi və yaxınlarının demoqrafik problemləri, ailə üzvlərinin məşğuliyyəti, maraqları haqqında məlumatlar əldə edirlər.

Valideynlər uşaqlarla keçirilən bütün kütləvi tədbirlərdə, təlimdə, problemlərin həllində iştirak etməyə cəlb edilirlər. Valideynlər tərbiyəçilərlə birlikdə uşağın inkişafının stimullaşdırılmasında fəal iştirak edir, səy göstərirlər. Bunun üçün, ilk növbədə, qruplarda mənimsənilən bilik və bacarıqlar ailədə möhkəmləndirilir. Belə bir qarşılıqlı əməkdaşlıq uşağın əqli fəaliyyətinin zənginləşməsinə, özünəinamın yaranmasına, nəticə etibarilə, məktəb həyatına daha rahat uyğunlaşma dövrünü keçməyə təsir göstərir. Valideynlər uşaqların təlim fəaliyyətində iştirak etdikləri təqdirdə onların təlim nailiyyətləri yüksəlir. Belə bir əməkdaşlıq şəraitində valideynlər aşağıdakı məsələlərlə tanış olmalıdırlar:

- uşaqların yaş xüsusiyyətləri;
- təlim-tərbiyə işinin əhəmiyyəti;
- uşaqların fəaliyyətlərini stimullaşdıran öyrədici mühitin vacibliyi;
- fiziki, emosional müdafiənin təmin edilməsi, mühitin təhlükəsizliyinin zəruriliyi;
- uşaqların fəallığı.

Valideynlər öz uşaqlarının inkişafı haqqında tərbiyəçidən məlumat alır, uşağın inkişafını təmin etmək məqsədilə tərbiyəçilərlə əməkdaşlıq edirlər.

Ailə ilə məktəbəqədər müəssisənin birgə fəaliyyətində aşağıdakıların nəzərə alınması tövsiyə olunur:

1. Tərbiyəçi və valideynlərin uşaqların təlim-tərbiyəsində tərəfdaş olması;

2. Tərbiyəçi və valideynlərin uşaqların təlim-tərbiyəsinin məqsəd və vəzifələrini bilməsi;

3. Tərbiyəçi və valideynlər tərəfindən uşağa kömək, hörmət və inamın göstərilməsi;

4. Tərbiyəçi və valideynlərin uşaqların tərbiyəsində kollektiv və ailənin tərbiyəvi imkanlarını bilməsi, uşaqlarla birgə iş zamanı tərbiyəvi potensialdan maksimum istifadə edilməsi;

5. Məktəbəqədər müəssisələr və ailənin qarşılıqlı fəaliyyətinin, onun aralıq və son nəticələrinin daim təhlil edilməsi.

Tərbiyəçi öz qrupunun valideynlərini yaxşı tanımalı və hər ailənin, hətta hər bir ailə üzvünün fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Valideynlərin müsbət keyfiyyətlərini, güclü tərəflərini müəyyən etmək, bu cəhətlərdən istifadə etmək işdə müvəffəqiyyəti təmin edir. Qarşılıqlı münasibətlər inamı möhkəmləndirir və valideynlər uşağın təhsili üçün zəruri olan imkan və vasitələrdən istifadə edərək müəyyən səlahiyyət əldə edirlər.

Uşaq bağçasının əsas vəzifələrindən biri uşaqların emosional əhvali-ruhiyyəsinin yaxşılaşması, valideynlərin tərbiyəedici təcrübələrini zənginləşdirərək uşaqların məktəbə hazırlanması zamanı valideynlərin pedaqoji kompetensiyalarının yüksəlməsi məqsədilə ailələrin tərbiyə-təhsil prosesinə cəlb edilməsidir. Uşağın tərbiyəsində həm bağçanın, həm də ailənin bərabər iştirakına sosial əməkdaşlıq kimi baxmaq lazımdır.

Uşaq bağçalarında valideynlərlə işin səmərəli təşkili nəticəsində uşaqlarda intellektual bacarıqlar formalaşmış olur. Praktiki olaraq bütün uşaqlar fəaliyyətin məqsədini dərk edir, onun planını nəzərdə tutur, adekvat üsullar seçir, nəticəni yoxlayır, işdə qarşıya çıxan çətinlikləri dəf edir və işi müvəffəqiyyətlə sona çatdıra bilirlər.

**Ailələrlə əlaqə üçün aşağıdakı strategiyalardan istifadə edilməsi tövsiyə olunur:**

- uşaq bağçası mühiti xaricində ailələrlə uşaqların qarşılıqlı əlaqənin saxlanılması;
- geniş perspektivlər barədə fikrini bildirmək üçün valideynlərin həvəsləndirilməsi;
- valideynlərin məktəbəqədər təhsil müəssisədəki fəaliyyətlə əlaqəsi olan və evdə istifadə edilməli resurslarla təmin edilməsi;
- tərbiyəçilərin ailələri öyrənməsi üçün imkan daxilində ailələrə səfərlər etmələri və valideynlərlə maarifləndirici iş aparmaları;
- uşağın sağlamlığa dair qabaqlayıcı tədbirlər və xidmətlərlə (qayğı da daxil olmaqla) təmin edilməsi;
- həssas ailələrə diqqət yetirilməsi.
- valideynlərin uşaqlarının inkişafı haqqında mütəmadı məlumatlandırılması.

# 3. UŞAQ İNKIŞAFININ İZLƏNİLMƏSİ VƏ DƏYƏRLƏNDİRİLMƏSİ

## 3.1.Uşaq inkişafının izlənilməsi

Məktəbəqədər təhsilin proqramının (kurikulumunun) tətbiqində tərbiyəçilərin ən mühüm funksiyalarından biri müşahidəçi kimi fəaliyyət göstərməsidir. Müşahidəçi funksiyasını yerinə yetirmək üçün tərbiyəçi müşahidəyə vaxt ayırmalı və onun aparılmasında lazımi vasitələrə malik olmalıdır.

Uşağın inkişafının izlənilməsi üçün ən səmərəli yollardan biri *təbii şəraitdə - evdə, məktəbəqədər müəssisədə, məktəbəqədər müəssisədən kənar mühitdə uşağın müşahidə edilməsi* və müşahidə etdiklərinə dair qeydlərin aparılmasıdır. Müşahidə və qeydlərin aparılması yolu ilə tərbiyəçilər uşaqlar haqqında məlumat əldə edib onun fəaliyyətini planlaşdırmalı, uşaqların ailəsi ilə paylaşmaq üçün ondan istifadə etməlidirlər.

*Müşahidə nədir? Müşahidə uşağın məşğuliyyətinə müdaxilə etmədən tərbiyəçi tərəfindən seyr edilməsi prosesidir.*

Tərbiyəçilər qeydə aldıqları davranışları dəqiq təsvir etməlidirlər. Müşahidə olunmuş fəaliyyət və davranış nümunələri mütəmadi halda qeyd olunmalıdır. Bu, sənədləşdirmə prosesidir və uşaqlar haqqında sistemli biliklərin toplamasına şərait yaradır. Müşahidələr sistematik halda aparılmalıdır. Sistematik yanaşma uşaqların müəyyən müddət ərzində bir çox fərqli fəaliyyətlərdə iştirakı zamanı onların inkişafının izlənilməsinə imkan yaradır.

## 3.2. Dəyərləndirmə və qiymətləndirmə

***Dəyərləndirmə*** məlumatların təhlili və nəticələrin çıxarılması prosesidir.

Dəyərləndirmə nəzərdə tutulan ümumi təlim nəticələrinə nail olmaqda uşağın əldə etdiyi irəliləyişi müəyyən etmək üçün qiymətləndirmə əsnasında toplanmış məlumatlar barədə mühakimə yürütməkdən və həmin məlumatları şərh etməkdən ibarətdir.

Məktəbəqədər təhsildə ***qiymətləndirmə*** uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və *təhsil* prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun obyektiv, etibarlı vasitələrlə ölçülməsidir.

Yeni qiymətləndirmə sisteminin tətbiq olunmasında məqsəd təlimin keyfiyyətini yaxşılaşdırmaq, tədris prosesinin səmərəliliyini təmin etmək, uşaq fəaliyyətinin inkişafını izləmək və istiqamətləndirməkdən ibarətdir.

Qiymətləndirmə tədris fəaliyyətinin başlanğıc nöqtəsi və səmərəli tədris fəaliyyətinə, qiymətləndirmədən asılı olaraq kurikuluma düzəlişlər edilməsinə, uşaqların inkişafı və təhsili ilə əlaqədar ailələrlə ünsiyyətə imkan yaradan əsas amildir. Hər hansı uşağın

nailiyyətlərinin qiymətləndirilməsi həmin uşağın təlim fəaliyyətini təkmilləşdirmək üçün nəzərdə tutulur.

Məktəbəqədər təhsil müəssisələrində üç növ qiymətləndirmədən istifadə edilir: *diaqnostik (ilkin), formativ (cari) və summativ (yekun).*

***Diaqnostik (ilkin) qiymətləndirmə*** sentyabr-oktyabr aylarında, təlim məşğələlərinin əvvəlində uşaqların ilkin inkişaf səviyyələrini, fərdi ehtiyaclarını müəyyənləşdirmək məqsədi ilə aparılır.

***Formativ (cari) qiymətləndirmə*** uşaqların ümumi inkişafının müntəzəm izlənilməsi və istiqamətləndirilməsi məqsədilə aparılır.

**«Summativ»** termini ingilis dilində «sum up», yəni müəyyən müddətin və ya işin yekunu, xülasəsi deməkdir. Summativ qiymətləndirmə müəyyən müddət üzrə aparılmış müşahidələri əhatə edən uşağın inkişafının ümumiləşdirmiş xülasəsi deməkdir. Xülasələr yarımillik və illik hesabatlar kimi və xüsusi formatda verilir.

***Summativ (yekun) qiymətləndirmə*** məktəbəqədər təhsil pilləsində uşaqların ümumi təlim nəticələrinə nail olduqlarını muəyyən etmək üçün məktəbəhazırlıq qrupunda ildə 2 dəfə (yarımildən bir) aparılır. Hər bir uşağın müəyyən müddət ərzində əldə etdiyi nailiyyətləri ümumiləşdirmək və qiymətləndirmək, ibtidai sinif müəllimləri ilə əlaqə, ünsiyyət və məktəbəqədər təhsildən ibtidai təhsilə keçidin asanlaşdırılması məqsədini daşıyır. Bu zaman uşağın il boyu proqramın bölmələri üzrə qazandığı nailiyyətlər ümumiləşdirilir və qiymətləndirilir.

## 3.3. Qiymətləndirmənin aparılmasına verilən tələblər

Uşaqlar təlim nailiyyətlərini müxtəlif yolla nümayiş etdirirlər. Münasib qaydada seçilmiş vaxt uşağın əhvali-ruhiyyəsi, verilən sualların xarakteri, məzmunu ilə uşağın tanışlığı, uşağın təlim dilini asanlıqla başa düşməsi nəticələrə əhəmiyyətli dərəcədə təsir göstərir.

Qiymətləndirmə:

- uşaqların bilmədiklərini və ya bacarmadıqlarını aşkar etməyə deyil, bilik və bacarıqlarını göstərməyə xidmət edir;

-tərbiyəçilərin planlaşdırdıqları məşğələlərin və tətbiq etdikləri təlim strategiyalarının təcrübədə nə dərəcədə səmərəli olduğunu müəyyən etməyə, habelə məktəbəqədər yaşlı uşaqların nəzərdə tutulan təlim nəticələrinə nail olmalarını təmin etmək üçün lazım olan dəyişiklikləri həyata keçirməyə imkan yaradır;

-uşaqda mənfi hisslər oyatmadan, onun özünəinamını və irəli getmək səylərini möhkəmləndirərək müsbət emosional şəraitdə aparılır;

- uşaqların təlim fəaliyyətinə dair toplanmış müxtəlif formalı dəlillərə əsasən vaxtaşırı aparılır;

- hər bir uşağın xüsusi ehtiyaclarına, öyrənmə üsuluna və inkişaf mərhələsinə həssaslıqla yanaşmanı əks etdirir.

Qiymətləndirmə zamanı uşağın hərəkət və davranışları, müəyyən şəraitdə fəaliyyətinin nəticələri qiymətləndirmənin obyektinə çevrilir; qiymətləndirmə zamanı uşağın hərtərəfli inkişafı nəzərə alınır; uşaqlar özlərinin və yoldaşlarının nailiyyətlərinin qiymətləndirilməsi prosesində iştirak edir; uşağın mövcud və əvvəlki nəticələri arasında müqayisə aparılır; uşağın valideynləri və təhsil mütəxəssisləri ilə mütəmadi əlaqə saxlanılır və tərbiyəçi hər bir uşağın nailiyyətlərini müntəzəm olaraq izləyir.

### 3.4. Dəyərləndirmə və qiymətləndirmənin metod və vasitələri

Dəyərləndirmə və qiymətləndirmə zamanı aşağıdakı metodlardan istifadə olunur:

• ***Müşahidə (diaqnostika məqsədilə aparılır və davamlı qiymətləndirmə vasitəsi kimi çıxış edir).*** Bu metoddan istifadə zamanı tərbiyəçilər uşaqların təlim fəaliyyətini izləyir, qeydlər aparır, uşaqların əldə etdikləri irəliləyişləri haqqında məlumatı həm portfolioda yerləşdirir, həm də valideynlərinə təqdim edir. Müşahidələrin qeydə alınması obyektiv məlumatın toplanmasından ibarətdir. Bu metod uşaqların fərdi xüsusiyyətləri, ehtiyacları, qabiliy-

yətləri və maraqları haqqında məlumat toplamağa imkan verir. Müşahidə tərbiyəçilərə müəyyən edilmiş məqsədlərə dair cəld və düzgün məlumat əldə etməkdə kömək göstərir.

Müşahidələr ***gündəlik və dövri*** olmaqla iki formada aparılır:

**Gündəlik müşahidə** heç bir qaydaya tabe olmur. Tərbiyəçi tərəfindən gündəlik həyat şəraitində aparılır. Alınan nəticələr ilkin məlumatlar formasında toplanır.

**Dövri müşahidə** uşağın oyun, təlim və əmək fəaliyyəti zamanı aparılır. Bu müşahidə vasitəsi ilə uşağın fəaliyyəti ardıcıl öyrənilir, nəticələrə görə anketlər doldurulur. Müşahidə, əsasən, uşağın maraq və xüsusi diqqəti cəlb edən məqamlarını aşkar edir.

- ***Müsahibə.*** Tərbiyəçi uşaqlarla müsahibəni söhbət formasında aparır. O, həmçinin bu üsuldan uşaqların dəyərləndirmə göstəricilərini müəyyənləşdirmək məqsədi ilə valideynlərlə aparılan iş zamanı da istifadə edir. Uşaq haqda ilkin məlumatın toplanması üçün aparılır.

- ***Şifahi sorğu*** söhbət və oyunlar formasında keçirilir. Sorğu tərbiyəçiyə uşaqların əşyalar, hadisələr, onların xüsusiyyətləri haqqında mənimsədikləri bilik, bacarıqların formalaşma səviyyəsini və fəaliyyətlərdə tətbiqetmə bacarığını yoxlamağa imkan verir.

- ***Fəaliyyət məhsullarının təhlili.*** Uşaqlar məhsuldar fəaliyyətin (rəsm, yapma, quraşdırma, kəsib-yapışdırma və s.) nəticələrinə görə qiymətləndirilirlər. Bu qiymətləndirmələrin obyektiv aparılması üçün həmin sahələr üzrə normalar müəyyənləşdirilir.

Məktəbəqədər təhsil müəssisələrində qiymətləndirmədə ***portfoliodan*** istifadə edilməsi məqsədəmüvafiqdir. Portfolio (ingilis dilindən tərcümədə portfel, mühüm sənədlər üçün qovluq) - uşağın əl işləri, fikirləşdikləri hekayələr, təsviri fəaliyyət məşğələlərinin nəticələri və əlavə olaraq uşağın hansısa fəaliyyətlə məşğul olarkən foto şəklinin, səhnələşdirmə zamanı, rol ifa edərkən foto şəkillərinin saxlanıldığı qovluqdur. Bu iş nümunələri valideynlərə də öz uşaqlarının nailiyyətlərini görməyə imkan yaradır.

Portfoliodan istifadə edərkən uşaqlara dair əldə edilən məlumatlar təhlil, şərh edilir və dəyərləndirilir. İl ərzində tərbiyəçilər uşağın inkişafı ilə bağlı qərarlarını qeyd edir və bununla da uşağın il ərzində əldə etdiyi inkişaf dinamikasını görməyə imkan yaranır. Portfolio tərbiyəçilərə uşaqların inkişaf və nailiyyətlərinin dəyərləndirilməsinə dair qərar verməkdə bələdçilik edir. Məktəbəqədər yaşlı uşaqların portfoliosu uşağın ayrı-ayrı nailiyyətlərinin adekvat təqdim edilməsi, həmçinin onun sosial, kommunikativ, idrak kimi fəaliyyət növləri üzrə əldə edilən nəticələrinin nəzərə alınmasına görə effektiv qiymətləndirmə formasıdır. Portfolio həm davamlı, həm summativ qiymətləndirmə məqsədilə aparılır və uzunmüddətli proses hesab olunur.

Beləliklə, məktəbəqədər müəssisələrdə portfolionu uşağın imkan və bacarıqlarının, fərdi keyfiyyətlərinin inkişaf səviyyəsinin kompleks qiymətləndirilməsi, "inkişaf trayektoriyası"nın qurulması üçün fərdi nailiyyətlərin təhlilinin vasitəsi kimi müəyyən etmək olar.

Portfolioya aşağıdakılar daxildir:

- ***təsviri və ya gündəlik qeydlər;***
- ***iş nümunələri;***
- ***ailə məlumatları;***
- ***yaş və inkişaf səviyyəsi cədvəlləri.***
- ***inkişafa dair hesabat.***

**Təsviri və ya gündəlik qeydlər.** Bu, uşaqların fərdi və ya qrup şəklində fəaliyyətləri haqqında günün sonunda təəssüratların qeyd olunmasıdır. Onlar subyektiv xarakter daşıyır. Bu qeydlər gün ərzində baş verən hadisələr arasında uşaqların müəyyən nailiyyət və uğursuzluğunu izləməkdə faydalı ola bilər.

## İş nümunələri.

İş nümunələrinin təhlili zamanı uşaq əvvəlcədən tərbiyəçi (valideyn) tərəfindən hazırlanmış xüsusi tapşırığı yerinə yetirir. Tapşırıq şəkil çəkmək, işarələr qoymaq, yarımçıq işi tamamlamaq, quraşdırma, yapma, riyazi əməliyyatları yerinə yetirmək, əşyalarla oyun və s. ibarət ola bilər. Belə tapşırıqlardan əsasən köməkçi metod kimi istifadə edilir. Bir tapşırığın nəticəsi ümumi rəy üçün əsas ola bilməz. Bu nəticələrin digər qiymətləndirmə metodlarının nəticələri ilə müqayisəsi (korrelyasiyası) aparılır.

**Ailənin məlumatları.**

Tərbiyəçilər və valideynlər məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsi işində daim əməkdaşlıq edirlər. Bu əməkdaşlığın mühüm bir cəhəti kimi ailənin uşaq haqqında məlumat verməsidir. Tərbiyəçilər sorğudan istifadə etməklə uşaq haqqında məlumat toplayırlar. Açıq ünsiyyət inkişafın müxtəlif sahələrində müşahidə və biliyin qiymətləndirilməsi üçün ilkin şərt yaradır.

**Yaş və inkişaf səviyyəsi cədvəlləri.** Hər yaş dövrünün sonunda uşaqların inkişaf səviyyələri müəyyən olunur.

Uşaqların yaş və inkişaf səviyyələrinin müəyyənləşdirilməsi və dəyərləndirmənin mütəmadi aparılması uşaqların fərdi maraqlarına, öyrənmə üsullarına və bacarıqlarına cavab verən müvafiq təlim strategiyalarının planlaşdırılması üçün əsas üsul hesab edilir. Bu qiymətləndirmə sistemi təlim strategiyaları vasitəsilə tərbiyəçilərin əsas nələrə diqqət yetirmələrinə və uşaqların davamlı inkişaf və təliminə dəstək olmaqda kömək göstərir.

Məzmun standartlarında nəzərdə tutulmuş nəticələrin hamısı təlim prosesində reallaşdırılmalı, *dəyərləndirmə zamanı uşaqların nəzərdə tutulmuş təlim nəticələri üzrə nailiyyətlərinə xüsusi diqqət yetirilməlidir.*

***İnkişafa dair hesabat.*** Bu altı yaşlılarla iş zamanı ildə 2 dəfə: yanvar və may aylarında aparılır. Bu zaman uşağın məktəbəqədər təhsilin sonunda inkişafının səviyyəsi müəyyən edilir.

# 4. UŞAQLARIN YAŞ VƏ İNKİŞAF SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR

**Nümunə №1.**

## Yaş və inkişaf səviyyəsi cədvəlləri

## 4 Yaş

| Bacarıqlar | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
|---|---|---|---|
| **Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik** | | | |
| Sadə özünəxidmət vərdişləri (soyunmaq, geyinmək, yemək, yuyunmaq) nümayiş etdirir. | | | |
| Şəxsi mədəni gigiyena qaydalarına əməl edir. | | | |
| Şəkil çəkir, rəngləyir, qayçıdan istifadə edir. | | | |
| Pilləkənləri enib-qalxır. | | | |
| Topu təpiklə vurur, tullayır, tutur, qaçır, üstündən tullanır. | | | |
| Müxtəlif məsafələrdə olan əşyaları forma, rəng, hərəkət, ölçü, səs, qoxusuna görə tanıyır. | | | |
| Sadə təhlükəsizlik qaydalarına əməl edir | | | |
| Əsas hərəkətləri yerinə yetirir. | | | |
| **Sosial-emosional inkişaf** | | | |
| Digərləri ilə oynayır və qarşılıqlı fəaliyyətdə olur. | | | |
| Ehtiyacları haqqında fikirlərini ifadə edir. | | | |
| Problemin həllinə maraq göstərir. | | | |
| Qrup fəaliyyətində iştirak edir, özünü qrupun üzvi kimi göstərməyə cəhd edir. | | | |
| Kiçiklər, yaşıdları və yaşlılarla ünsiyyət qurur. | | | |
| Sevimli insanları, xoşladığı məşğuliyyəti fərqləndirir. | | | |
| Ünsiyyətdə qoyulan sadə qayda və tapşırıqlara dözümlülük nümayiş etdirir. | | | |
| Kiçik münaqişələri həll edə bilir. | | | |
| Sadə əmək tapşırıqlarını yerinə yetirir. | | | |
| **İdrakın inkişafı** | | | |
| Üç dairəsində sayma, hesablama əməliyyatları yerinə yetirir. | | | |
| Əşyaları əlamətinə (forma, ölçü, kəmiyyət) görə | | | |

| | | | |
|---|---|---|---|
| fərqləndirir. | | | |
| Məkan anlayışlarını fərqləndirir. | | | |
| Həndəsi fiqurları (dairə, üçbucaq) tanıyır. | | | |
| Əşyalar, həndəsi fiqurlar və rəqəmlərlə sadə əməliyyatlar (toplama, az-çox, böyük-kiçik, hündür-alçaq) yerinə yetirir. | | | |
| Hərflərlə və səslərlə maraqlanır ("oxu" bacarıqlarına başlayır) | | | |
| Dinlədiyi fikrə əsasən hərəkətlərini tənzimləyir və reaksiya verir. | | | |
| Danışıq səslərini müxtəlif dil vahidlərində (heca, söz, cümlə) düzgün tələffüz edir. | | | |
| Kiçiklər, yaşıdları və yaşlılarla ünsiyyət qurur. | | | |
| Ünsiyyətdə qoyulan sadə qayda və tapşırıqlara dözümlülük nümayiş etdirir. | | | |
| Özü və ətrafdakılar haqqında təsəvvürlərini sualların köməyi ilə ifadə edir. | | | |
| Sadə əmək tapşırıqlarını yerinə yetirir. | | | |
| Diqqəti yayınmadan tapşırığı tamamlaya bilir. | | | |
| Müstəqil işləyir, lazım gəlsə, kömək istəyir. | | | |
| İşlərin yaxşı olmasına cəhd edir. | | | |
| Öyrənməyi sevir. | | | |
| **Estetik-yaradıcı inkişaf** | | | |
| Sadə təsvir alətlərindən və vəsaitlərdən (karandaş, flamaster, fırça, yapışqan, plastilin) təyinatına görə istifadə edir. | | | |
| Sadə quraşdırma (tikinti materiallarından sadə modellər düzəltmək) bacarıqları nümayiş etdirir. | | | |
| Musiqini dinləyir, janrına və xarakterinə görə reaksiya verir, sadə ifaçılıq bacarıqları (sadə mahnılar oxumaq, musiqili-ritmik hərəkətlər etmək) nümayiş etdirir, musiqi alətini (piano, qarmon, dəf, tütək) tanıyır və adlandırır. | | | |
| Bədii fəaliyyət üzrə müstəqil, sadə yaradıcılıq (təsviri, musiqi fəaliyyəti, bayram və əyləncələrdə iştirak etmək) bacarıqları nümayiş etdirir. | | | |
| Qiymətləndirmə bacarığı nümayiş etdirir. | | | |

**Nümunə №2.**

## Yaş və inkişaf səviyyəsi cədvəli

### 5 Yaş

| Bacarıqlar | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
|---|---|---|---|
| **Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik** | | | |
| Şəxsi mədəni gigiyena qaydalarına əməl edir. | | | |
| Qidalanma və sanitar-gigiyena qaydalarına əməl edir. | | | |
| Özünəxidmət hərəkətlərini yerinə yetirir. | | | |
| Yeriş və qaçış, hoppanmaq, sürünmək, dırmanmaq, müvazinətini saxlamaq, topu, kürəciyi müxtəlif üsullarla atıb-tutmaq hərəkətlərini yerinə yetirir. | | | |
| Karandaş, fırça, qayçı, təbaşir, rəngli boya, mozaika, top, oyuncaqlar, plastilin, gil, quraşdırma materiallarından istifadə edir. | | | |
| Sadə təhlükəsizlik qaydalarına əməl edir. | | | |
| Fəaliyyət zamanı hərəki qabiliyyətlər[13] nümayiş etdirir. | | | |
| Hissi motor hərəkətlərini yerinə yetirir. | | | |
| Böyük, kiçik və hissi motor hərəkətlərini koordinasiya edir. | | | |
| **Sosial-emosional inkişaf** | | | |
| Özündən kiçiklər, həmyaşıdları və böyüklərlə ünsiyyət qurur. | | | |
| Hərəkətlərini sosial normalara uyğun olaraq sadə formada nümayiş etdirir. | | | |
| Qrup oyununa qoşulur, rolunu müəyyən edir,qərarlar qəbul edir. | | | |
| Oyunun qaydalarına əməl edir. | | | |
| Ünsiyyət zamanı öz rolunu yaşına müvafiq qaydada tənzimləyir. | | | |

[13] Fiziki tapşırıqları, hərəkətli oyunları yerinə yetirərkən müstəqillik, yaradıcılıq, sürət, dözümlülük, çeviklik, çəldlik kimi keyfiyyətlər inkişaf edir.

| | | | |
|---|---|---|---|
| Ünsiyyət prosesində vəzifələrini anlayır və müxtəlif situasiyalarda onu nəzərə alır. | | | |
| Fərdi qaydada əmək bacarıqları nümayiş etdirir. | | | |
| Liderlik bacarığı nümayiş etdirir. | | | |
| **İdrakın inkişafı** | | | |
| Fikrini ifadə etmək üçün tam, mürəkkəb cümlələrdən istifadə edir. | | | |
| Sadə nitq etiketlərindən istifadə edir. | | | |
| Dinləyib-anladığı fikirlərə münasibət bildirir. | | | |
| Özü, başqaları və ətraf aləm haqqında fikirlərini ifadə edir. | | | |
| Baş verən hadisələrə münasibət bildirir, fərziyyələr irəli sürür. | | | |
| Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir. | | | |
| Adını, valideynlərinin adını, soyadını, ünvanını, ev telefonunu, milli mənsubiyyətini, dilini, dinini, cinsini sadalayır, özünə məxsus əşyaları qoruyur. | | | |
| Beş dairəsində sayma, hesablama və ölçmə əməliyyatları yerinə yetirir. | | | |
| Həndəsi fiqurları (dairə, üçbucaq və kvadrat) tanıyır və adlandırır. | | | |
| Məkana və zamana görə hərəkətlərin ardıcıllığını təyin edir. | | | |
| Özü, başqaları və ətraf aləm haqqında fikirlərini ifadə edir. | | | |
| Ünsiyyət prosesində vəzifələrini anlayır və müxtəlif situasiyalarda onu nəzərə alır. | | | |
| **Estetik-yaradıcı inkişaf** | | | |
| Təsvir alətlərindən və vəsaitlərdən (karandaş, flamaster, rəngli boya, qayçı, fırça, yapışqan, rəngli kağızlar, gil və plastilin) təyinatına görə istifadə edir. | | | |
| Sadə quraşdırma (tikinti, tullantı, təbiət materiallarından və kağızdan istifadə edərək müxtəlif modellər düzəltmək) bacarıqları nümayiş etdirir. | | | |
| Rəsmetmə, yapma və yapışdırma bacarıqları nümayiş etdirir. | | | |
| Musiqini dinləyərək, janrına, melodiyasına, ritminə, səstonuna görə fərqləndirir, musiqi alətlərini tanıyır və | | | |

| | | | |
|---|---|---|---|
| fərqləndirir, ifaçılıq bacarıqları nümayiş etdirir. | | | |
| Müstəqil təsviri, musiqi və konstruktiv fəaliyyət göstərir, bayram və əyləncələrin hazırlanması və keçirilməsində iştirak edir. | | | |
| Qiymətləndirmə bacarığı nümayiş etdirir. | | | |

**Nümunə №3.**

## Yaş və inkişaf səviyyəsi cədvəlləri
## 6 yaş

| **Bacarıqlar** | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
|---|---|---|---|
| **Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik** | | | |
| Fəaliyyətini fiziki tapşırıqların (gimnastika, hərəkətli oyun, gəzinti, növbətçilik) yerinə yetirilməsinə uyğunlaşdırır. | | | |
| Sərbəst şəkildə özünəxidmət vərdişləri (yatağını, xarici görünüşünü səliqəyə salmaq; təmizliyə riayət etmək) nümayiş etdirir. | | | |
| Şəxsi mədəni gigiyena qaydalarına əməl edir. | | | |
| Yeriş və qaçış,hoppanmaq, sürünmək, dırmanmaq, müvazinətini saxlamaq, topu, kürəciyi müxtəlif üsullarla atıb-tutmaq hərəkətlərini yerinə yetirir. | | | |
| Karandaş, fırça, qayçı, təbaşir, rəngli boya, mozaika, top, oyuncaqlar, plastilin, gil, quraşdırma materiallarından istifadə edir. | | | |
| Sadə təhlükəsizlik qaydalarına əməl edir. | | | |
| Müxtəlif məsafələrdə olan əşyaları xüsusiyyətinə (forma, rəng, hərəkət, ölçü, səs, qoxusuna) görə ümumiləşdirir və təsnif edir. | | | |
| Böyük və kiçik motor bacarıqlarının koordinasiyasını göstəri | | | |
| Sadə təhlükəsizlik qaydalarına (təhlükəli heyvan, bitki və əşyalar, dərman və kimyəvi preparatlarla müvafiq qaydada davranmaq; yol hərəkəti qaydalarına riayət etmək; situasiyaya uyğun yanğınsöndürən, təcili yardım | | | |

| | | | |
|---|---|---|---|
| və polisə cağırışlar etmək; özünə və başqalarına ilkin yardım göstərmək; təbiət və fövqəladə hadisələr zamanı ehtiyat tədbirləri görmək; məişətdə ehtiyatlı davranmaq) əməl edir. | | | |
| **Sosial-emosional inkişaf** | | | |
| Qrupun üzvü kimi fəaliyyət göstərir. | | | |
| Ünsiyyətini yaşadığı mühitin sosial normalarına *(danışarkən qışqırmamaq; təhqir etməmək; nəzakətlə müraciət etmək; başqalarını dinləmək)* əsasən tənzimləyir. | | | |
| Fərdi qaydada və kollektivdə əmək bacarıqları nümayiş etdirir. | | | |
| Ünsiyyət qurduğu insanlar arasındakı fərqlərə (fiziki, irqi, milli, dini, cinsi, sosial) dözümlü yanaşır. | | | |
| Öz hərəkətlərini başqalarının hərəkəti ilə müqayisə edir və qiymətləndirir. | | | |
| Arzu və istəklərini özünəməxsus tərzdə icra edir. | | | |
| Məsələnin həllini axtararkən özünəinam, təşəbbüskarlıq və müstəqillik nümayiş etdirir. | | | |
| Hərəkətlərini sosial normalara uyğun nümayiş etdirir. | | | |
| Müstəqil işləyir və oynayır. | | | |
| Məsuliyyət daşıyır. | | | |
| Digərlərinin hisslərini bölüşür. | | | |
| Hisslərini ifadə etməyi öyrənir. | | | |
| **İdrakın inkişafı** | | | |
| Nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir. | | | |
| Mürəkkəb cümlələrlə danışır. | | | |
| On dairəsində sayma, hesablama və ölçmə əməliyyatları yerinə yetirir. | | | |
| Əşyalar içərisindən dairə, üçbucaq, kvadratı seçir, fərqləndirir və müqayisə edir. | | | |
| Əşyaları əlamətinə (forma, ölçü, kəmiyyət və həcm) görə ümumiləşdirir, əşya və hadisələr arasında səbəb-nəticə əlaqələri yaradır. | | | |
| Məkan (sağdan sola, yuxarıdan aşağıya, ortaya, küncə) və zamanla bağlı (ilin fəsilləri, aylar, həftənin günləri, günün hissələri, saat) ilkin riyazi əməliyyatlar yerinə yetirir. | | | |
| Baş verən hadisələr arasında səbəb-nəticə əlaqələri qurur. | | | |

| | | | |
|---|---|---|---|
| Dövlət rəmzləri, milli ordu, milli qəhrəmanlar, milli sərvətlər, tarixi günlər və abidələr, milli bayramlar haqqında sadə təqdimatlar edir. | | | |
| Uzunmüddətli diqqət inkişaf edir. | | | |
| Ətraf aləmin daha çox başa düşülməsi ilə maraqlanır. | | | |
| Müxtəlif qabiliyyətlər arasındakı fərqi görməyə başlayır. | | | |
| Başqalarını şüurlu anlayır və işi müqayisə edir. | | | |
| Fantaziyanı reallıqdan fərqləndirə bilir. | | | |
| Ünsiyyətini yaşadığı mühitin sosial normalarına (danışarkən qışqırmamaq; təhqir etməmək; nəzakətlə müraciət etmək; başqalarını dinləmək) əsasən tənzimləyir. | | | |
| Ünsiyyət qurduğu insanlar arasındakı fərqlərə (fiziki, irqi, milli, dini, cinsi, sosial) dözümlü yanaşır. | | | |
| **Estetik-yaradıcı inkişaf** | | | |
| Sadə və rəngli karandaş, flamaster, rəngli təbaşir, kömür, rəngli boya, qayçı, fırça, yapışqan, rəngli kağızlar, gil və plastilin, molbert, palitradan təyinatına görə istifadə edir. | | | |
| Rəsmetmə (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında sujetlər yaratmaq), yapma (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında sadə obrazlar yaratmaq) və yapışdırma (müxtəlif kəsmə üsullarından istifadə edərək, mövzular, bədii əsərlər, təsəvvürləri əsasında kompazisiyalar qurmaq) bacarıqları nümayiş etdirir. | | | |
| Verilmiş nümunə və sxemlər əsasında quraşdırma (fərdi vəkollektiv şəkildə müxtəlif fiqurlar və kompozisiyalar düzəltmək), planlaşdırma bacarıqları nümayiş etdirir. | | | |
| Musiqini solo və xorla oxumaq; musiqili-ritmik hərəkətləri yerinə yetirmək; uşaq musiqi alətlərində tək və ansamblda ifa etmək bacarıqları nümayiş etdirir. | | | |
| Təsviri fəaliyyət, musiqi və konstruktiv fəaliyyət, rolların ifası) qabiliyyətləri nümayiş etdirir. | | | |
| Qiymətləndirmə bacarığı nümayiş etdirir. | | | |

**Nümunə № 4.**

# İNKIŞAFA DAIR HESABAT

***5-6 yaş***

***Uşağın adı___________________________________***
***Tərbiyəçi___________________________________***
***Uşaq bağçası_____2012-2013________________***

Məktəbəqədər yaşlı uşaqların inkişafı onların fərdi irəliləyişinə uyğun olaraq dəyərləndirilir. Uşaqlarda bacarıqların əldə edilməsi müxtəlif formada və zamanda baş verir.

**Uşaqların irəliləyişini təsvir etmək üçün aşağıdakı inkişaf miqyaslarından istifadə edilir:**

***1-meyarlara cavab vermir*** ***2-meyarlara cavab verməyə başlayır***
***3-meyarlara cavab verir*** ***4-gözlənilənlərdən artıq nailiyyət əldə edir.***

| **İNKİŞAF SAHƏLƏRİ ÜZRƏ FƏRDİ PLANLAŞDIRMA** | ***May*** | ***Yanvar*** |
|---|---|---|
| **I.İDRAKIN İNKİŞAFI – nitq inkişafı üzrə** | | |
| Dinləyib-anladığı fikirlərə münasibət bildirir. | | |
| Bədii nümunə, müşahidə və şəkillər əsasında fikrini sadə şəkildə şərh edir. | | |
| Sadə nitq etiketlərindən (“bəli”, “xeyr”, “salam”, “sağ ol”, “çox sağ ol”, “bağışla”, “buyurun”, “zəhmət olmasa”, “nuş olsun”, “xoş gəlmisiniz”, “yaxşı yol”), jest və mimikalardan istifadə edir. | | |
| Müxtəlif ilkin oxu bacarıqlarını tətbiq edir (şəkillər, nümunələr, ritmlər, hadisələrin ardıcıllığı, hekayələrin yenidən söylənməsi və s.) | | |
| Əlamət, keyfiyyət, hiss bildirən, antonim və sinonim sözlərdən istifadə edir. | | |
| Hərf və səsləri fərqləndirir, hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən mətnlər qurur. | | |

| | | |
|---|---|---|
| **İDRAKIN İNKİŞAFI – sadə riyazi təsəvvürlərin inkişafı üzrə** | | |
| On dairəsində sayma, hesablama və ölçmə əməliyyatları yerinə yetirir. | | |
| 10-a qədər düzünə və tərsinə sayır. | | |
| Əşyalar içərisindən dairəni, üçbucağı, kvadratı seçir, fərqləndirir və müqayisə edir. | | |
| Əşyaları əlamətinə (rəng, forma, ölçü, kəmiyyət və həcm) görə ayırd edir, ümumiləşdirir, səbəb-nəticə əlaqələri müəyyənləşdirir. | | |
| Əşyalar, həndəsi fiqurlar, rəqəmlər və işarələrlə sadə riyazi əməliyyatlar (toplama, çıxma, bərabər, qeyri-bərabər) və konstruktiv bacarıqlar (planlaşdırma, modelləşdirmə, sxemləşdirməvə simvollaşdırma) nümayiş etdirir. | | |
| Oyun və tədqiqatlar zamanı müxtəlif vəsaitlərdən (maqnit, böyüdücü şüşə, xətkeş və s.) istifadə edir. | | |
| Məkan (sağdan sola, yuxarıdan aşağıya, ortaya, küncə) və zamanla bağlı (ilin fəsilləri, aylar, həftənin günləri, günün hissələri, saat) ilkin riyazi əməliyyatlar yerinə yetirir. | | |
| **İDRAKIN İNKİŞAFI - ətraf aləmlə tanışlıq üzrə** | | |
| Ətraf mühiti öyrənməyə maraq nümayiş etdirir | | |
| Canlı və cansız aləmdəki obyektlərlə düzgün davranış (qorumaq, mühafizə etmək, qiymətləndirmək) bacarığı nümayiş etdirir. | | |
| Səma cisimlərində, gündəlik havada və ilin fəsillərində olan dəyişikliklərdə fərqli və oxşar cəhətləri müəyyən edir, əlaqələri izah edir və məntiqi nəticələr çıxarır. | | |
| Müxtəlif materialların keyfiyyətini təsvir edərək, onların gündəlikdə necə istifadə olduğunu deyir. | | |
| Müəyyən müddətdə (bir neçə gün\gecə, həftə ərzində) ətraf mühitdə verən hadisələri\fəaliyyətləri təsvir edir və izah edir. | | |
| Ailə və vətən haqqında (dövlət rəmzləri, milli ordu, milli qəhrəmanlar, milli sərvətlər, tarixi günlər və abidələr, milli bayramlar) sadə təqdimatlar edir. | | |
| **İDRAKIN İNKİŞAFI – elementar tədqiqatçılıq üzrə** | | |
| Tədqiqatçılığa maraq nümayiş etdirir. | | |

| | | |
|---|---|---|
| Obyektlər haqqında məlumat toplayır və müxtəlif yollar ilə (müzakirə edir, şəkillər şəkir, müxtəlif simvollar düzəldir və s.) izah və təsvir edir. | | |
| Müşahidələri müzakirə edir və qeydlər aparır. | | |
| Səbəb-nəticə əlaqələri müəyyənləşdirir. | | |
| Müxtəlif təbiət materialları (daş, qum, su, torpaq) haqqında məlumat toplamaq üçün hiss üzvlərindən istifadə edir və onlar haqqında izahat verir və ümumiləşdirmə (məsələn, materialların fərqini müəyyən edir, oxşar cəhətlərini, onlar bir-biri ilə necə əlaqəli olduğunu deyir və s.). aparır. | | |
| **II. ESTETİK VƏ YARADICI İNKİŞAF - təsviri fəaliyyət** | | |
| Rəsmetmə (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında sujetlər yaratmaq), yapma (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında sadə obrazlar yaratmaq) və yapışdırma (müxtəlif kəsmə üsullarından istifadə edərək, mövzular, bədii əsərlər, təsəvvürləri əsasında kompozisiyalar qurmaq) bacarıqları nümayiş etdirir. | | |
| Təsvir alətləri və vəsaitlərdən (sadə və rəngli karandaş, flamaster, rəngli təbaşir, kömür, rəngli boya, qayçı, fırça, yapışqan, rəngli kağızlar, gil və plastilin, molbert, palitra) təyinatına görə istifadə edir. | | |
| **ESTETİK VƏ YARADICI İNKİŞAF -quraşdırma** | | |
| Verilmiş nümunə və sxemlər əsasında quraşdırma (fərdi və kollektiv şəkildə müxtəlif fiqurlar və kompozisiyalar düzəltmək), planlaşdırma bacarıqları nümayiş etdirir. | | |
| **ESTETİK VƏ YARADICI İNKİŞAF -musiqi** | | |
| Musiqini dinləyərək xarakterinə, janrına, melodiyasına, ritminə, səs tonuna, müəyyən hissəsinə görə fərqləndirir, ifaçılıq (solo və xorla oxumaq; musiqili-ritmik hərəkətləri yerinə yetirmək; uşaq musiqi alətlərində tək və ansamblda ifa etmək) bacarıqları nümayiş etdirir. | | |
| Müstəqil yaradıcılıq (təsviri fəaliyyət, musiqi və konstruktiv fəaliyyət, rolların ifası) qabiliyyətləri nümayiş etdirir. | | |
| **III. FİZİKİ İNKİŞAF, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK** | | |
| Əsas hərəkətləri (qaməti düz saxlamaqla istiqaməti və tempi dəyişərək yerimək və qaçmaq; yerində, uzununa və müxtəlif istiqamətlərə hoppanmaq; müxtəlif əşyaların üstü, altı və arası ilə sürünmək; | | |

| | | |
|---|---|---|
| məhdudlaşmış sədd üzərində müvazinəti saxlamaqla yeriş və yürüş; gimnastika nərdivanına istiqaməti dəyişməklə dırmanmaq; topu yerə vuraraq irəliləmək; kürəciyi diyirlətmək; qum kisəciyini atmaq) yerinə yetirir. | | |
| Müxtəlif məsafələrdə olan əşyaları sensor və emosional xüsusiyyətinə (forma, rəng, hərəkət, ölçü, səs, dad və iyinə) görə ümumiləşdirir və təsnif edir. | | |
| Özünəxidmət vərdişləri (yatağını, xarici görünüşünü səliqəyə salmaq; təmizliyə riayət etmək) nümayiş etdirir. | | |
| Şəxsi mədəni gigiyena qaydalarına (saçının səliqəsini, bədəninin, paltarlarının, dişlərinin təmizliyini gözləmək; tez və səliqəli soyunub, geyinmək; paltarlarını səliqə ilə yığmaq; yatağını səliqəyə salmaq) əməl edir. | | |
| Əşyalardan (karandaşlar, flamaster, rəngli təbaşir, rəngli boya, mozaika, musiqi oyuncaqları, yapışqan, pazllar, qayçı, düymə), təbiət, tullantı və tikinti materiallarından təyinatına görə istifadə edir. | | |
| Sadə təhlükəsizlik qaydalarına (təhlükəli heyvan, bitki və əşyalar, dərman və kimyəvi preparatlarla müvafiq qaydada davranmaq; yol hərəkəti qaydalarına riayət etmək; situasiyaya uyğun yanğınsöndürən, təcili yardım və polisə çağırışlar etmək; özünə və başqalarına ilkin yardım göstərmək; təbiət və fövqəladə hadisələr zamanı ehtiyat tədbirləri görmək; məişətdə ehtiyatlı davranmaq) əməl edir. | | |
| Fəaliyyət zamanı hərəki qabiliyyətlər[14] nümayiş etdirir. | | |
| Masa arxasında mədəni davranış qaydalarına (qamətini düz saxlamaq; yemək dəstləri-qaşıq, bıçaq və çəngəldən istifadə etmək; səssiz və səliqəli yemək) əməl edir. | | |
| Sadə oyunların qaydalarını başa düşür və əməl edir | | |
| **IV. SOSİAL-EMOSİONAL İNKİŞAF** | | |
| Öz fəaliyyətini sosial normalara (qrupdaxili qaydalar, kollektivdə etik davranış) uyğunlaşdırır. | | |
| Özünə nəzarəti nümayiş etdirir. | | |
| Öyrənmənin çətinliklərini qəbul edir. | | |
| Münaqişələrin  və problemərin həlli yollarını tapır. | | |

[14] Uşaq şəxsiyyətinin hərtərəfli inkişafı təmin olunur. Onlarda təmkin, israr, qətiyyət, cəsarət, təşkilatçılıq, təşəbbüskarlıq, müstəqillik, yaradıcılıq və fantaziya kimi qabiliyyətlər inkişaf edir.

| | | |
|---|---|---|
| Öz hərəkətləri üçün məsuliyyəti qəbul edir. | | |
| Qrup fəaliyyətlərində diqqətli olur. | | |
| Özünün və qrupun əmlakının qayğısına qalır. | | |
| Səmərəli iş vərdişlərini müəyyən edir və təcrübədən keçirir. | | |
| Digərləri ilə əməkdaşlıqda işləyir və oynayır. | | |
| Lazım olanda müstəqil işləyir. | | |
| Qrupun gün rejiminə əməl edir. | | |
| Təşəbbüskarlıq nümayiş etdirir. | | |
| Gözləməyi və növbəni qəbul edir. | | |

***YANVAR ÜÇÜN QEYDLƏR*:** Digərlərinə qarşı mehribandır və hörmət edir. Qrup otağında başqalarına kömək etməyi sevir və tərbiyəçinin köməyi ilə kiçik qrup fəaliyyətlərində iştirak edir. Öz işi ilə məşğul olarkən yoldaşlarının gördüyü işlər onun diqqətini yayındırır. Çünki o, hər şeyi bilməyə can atır və yeni şeyləri asanlıqla öyrənir. Biz bu yarım ildə onunla daha çox məşğul olmağı və onun öz gücündən konstruktiv və yaradıcı yollarla istifadə etməsinə kömək etməyi planlaşdırırıq.

**Tərbiyəçinin imzası: ____________________________**

**Valideynin imzası: _____________________________**

***MAY AYI ÜÇÜN QEYDLƏR:***

**Tərbiyəçinin imzası: ____________________________**
**Valideynin imzası: _____________________________**

# TEZEARUS

***Məktəbəqədər təhsilin proqramı (kurikulumu)*** **-** məktəbəqədər təhsilin son məqsədlərini, həmin məqsədlərə çatmaq üçün müəyyən edilən yol, forma və vasitələri, uşaq inkişafının və təliminin izlənilməsini və dəyərləndirilməsini, inkişaf səviyyəsini müəyyənləşdirmək mexanizmlərini özündə cəmləşdirən dövlət sənədidir.

***Təlimin məzmunu*** **-** uşaq şəxsiyyətinin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusudur.

***Təlim nəticəsi*** **-** müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

***İnkişaf sahələri*** **-** uşaqların inkişaf sahələri üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsidir.

***Məzmun standartı*** **-** dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyduöu dövlət tələbidir.

***Təlim strategiyası*** **-** təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur.

***İnteqrasiya*** **-** müəyyən təhsil sistemi çərcivəsində uşaqların təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir. Kurikulumda şaquli və üfüqi olmaqla onun iki növündən istifadə edilir.

***Resurslar*** **-** Məzmun standartlarının reallaşdırılmasında istifadə olunan təlim vasitələridir.

***Pedaqoji innovasiya*** **-** təhsil müəssisələrində, pedaqoji nəzəriyyələrdə, tərbiyəçi və uşaqların fəaliyyətlərində, təlim-tərbiyənin məzmununda, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə, ümumiyyətlə, pedaqoji sistemdə baş verən yeniliklərdir.

***Uşaq nailiyyətləri*** - təlim zamanı uşaqların qazandıqları dəyərlərdir.

***Dəyərlər*** - şəxsiyyəti şərtləndirən keyfiyyətlərdir.

***Şəxsiyyətyönümlülük*** - uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı və onlarda həyat üçün lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını bir vəzifə kimi qarşıya qoyur.

***Differensiallaşdırma*** - təhsil islahatının prinsiplərindən biridir. Uşaqların fərdi xüsusiyyətlərini, maraq və tələbatlarını, fiziki və əqli inkişaf səviyyələrini, psixofizioloji xüsusiyyətlərini nəzərə almaqla, onların təliminin bu xüsisiyyətlər əsasında təşkil olunmasını tələb edir.

***Əməkdaşlıq*** - "Tərbiyəçi-uşaq və valideyn" münasibətlərində qarşılıqlı fəaliyyətin təmin olunmasıdır.

***Nəticəyönümlülük*** - fəaliyyətin əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulmasıdır.

***Portfolio*** - uşağın müəyyən müddət ərzində yerinə yetirdiyi işlərin (çəkdikləri rəsmlər, fikirləşdikləri hekayələr, təsviri fəaliyyət məşğələlərinin nəticələri və s.) toplandığı xüsusi qovluqdur.

***Motivasiya*** - məşğələnin vacib komponenti olmaqla, uşaqların idrak fəallığına təkan verən prosesdir.

***Qiymətləndirmə*** - məktəbəqədər yaşlı uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplaması prosesidir. Hər hansı uşağın nailiyyətlərinin qiymətləndirilməsi həmin uşağın təlim fəaliyyətini təkmilləşdirmək üçün nəzərdə tutulur.

***Dəyərləndirmə*** - dəyərləndirmə toplanmış məlumatların təhlili və nəticələrin çıxarılması prosesidir. Dəyərləndirmə uşağın əldə etdiyi irəliləyişi müəyyən etmək üçün qiymətləndirmə əsasında toplanmış məlumatlar barədə mühakimə yürütməkdən və həmin məlumatları şərh etməkdən ibarətdir.

***Fasilitasiya*** - qrupda diskussiyanın təşkili, fəallaşdırılması, səmərəli yönəltmə prosesi, ***fasilitator*** isə - uşaq tərəfindən biliklərin əldə edilməsi prosesində bələdçi rolunu yerinə yetirən şəxsdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### *Azərbaycan dilində*


1. Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) Kurikulum, 2008, № 3.

2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı. (2007-2010-cu illər) Bakı şəhəri, 12 aprel 2007-ci il. Azərbaycan müəllimi qəzeti, 13 aprel 2007-ci il.

3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, http://edu.gov.az 5 sentyabr 2009-cu il.

4. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. http://www.president.az/articles/9779 24 oktyabr 2013.

5. Əhmədov A., Abbasov Ə. Məktəbəqədər təhsilin konseptual problemləri. //Kurikulum, 2011, № 2, səh.8-15.

6. Əlizadə Ə. Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər [Mətn]: III cild.- B.: 2008.- 501 s.

7. Fəal təlim. Təlimatçılar və müəllimlər üçün vəsait. Azərbaycan Respublikası Təhsil Nazirliyi / Təhsilin İnkişafı Mərkəzi, Bakı, 2003.

8. İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait. Bakı, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, 2002.

9. Kurikulum islahatı:tədqiqatlat, nəticələr.Bakı, TPİ, 2011.

10. Kərimov Y.Ş.Təlim metodları. Bakı, 2009.

11. “Məktəbəqədər təhsilin dövlət standartı və proqramı”. 16 iyul 2010-cu il. http://www.edu.gov.az/

12. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. B., Mütərcim, 2010.

13. Pometun E. İnteraktiv təlim. (Müəllimlər üçün tədris vəsaiti) (Tərcümə edəni K.Quliyeva) Bakı, 2010.

14. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, 2008.

15. Veysova Z. Fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait, UNİCEF, 2007.

## *İngilis dilində*

1. Beginning to READ: Thinking and Learning About Print, Marilyn Jager Adams, Cambridge, MA: The MİT PRESS,1998.

2. Child Assessment Profile,Chicago Public Schools, 1999. www.isbe.net

3. Children from Birth to Age 8, Copple, C., Bredekamp, S., NAEYC, Washington DC, 2002.

4. CURTAIN, H. [On-line] Foreign Language Learning: An Early Start.http://www.penpages.psu.edu/penpages_reference/28507/285073032.HTML (July 2005).

5. Gail Gregory, Presenter.Make Your Day Conference Seattle, WA 2005

6. Creative curriculum. For infants, toddlers and twos.USA, vashington, 2010.p.-247

7. Creative Curriculum for Preschool, Diane Trister Dodge, Teaching Strategies, Washington DC, 2008.

8. State of Connecticut. Department of Education, 165 Capitol Avenue, Hartford, Connecticut 06106, (860) 713-6530.

9. Early Learning Standards, Illinois State Board of Education, 2002.

10. Developmentally Appropriate Practice in Early Childhood Programs Serving Early Learning Standards, Illinois State Board of Education, 2002.

11. Developmentally Appropriate Practice in Early Childhood Programs Serving Children from Birth to Age 8, Copple, C., Bredekamp, S., NAEYC, Washington DC, 2002.

12. K. Rudd and others, Labor's Plan for Early Childhood: Election 2007 Policy Document, Australian Labor Party, Canberra, 2007.

13. K. Rudd, Press conference with Maxine McKew, Sydney Day Nursery, Sydney, 17 April 2008.

14.http://www.vanderbilt.edu/csefel/resources/states/iowa_pbsqpps_crosswalk.doc.

15. www.ReadySetK.org

16. rmchar@lsu.edu.

17.http://www.smartstartnc.org/conference/2009/Handouts09/528.ppt

18. http://www.eddept.wa.edu.au/ November 2003. (modified) Department of Education and Training, Western Australia.

19. http://www.rand.org.

20. http://indigenous-early-intervention.com/

21. http://ou.edu/socialwork/faculty/index.html

22.http://www.curriculumforexcellencescotland.gov.uk/buildingthecurriculum/Buildingthecurriculum2/index.asp

23.http://www.education.com/reference/article/Ref_Preparing_Your_Child/-dən Aprel 20, 2007

24.http://www.educastur.princast.es/cpr/oviedo/linguapro/en/rec_en.htm (July 2005). LINGUA [On-line] Teacher Training and the Teaching of Foreign Languages in the Early Stages.

***Rus dilində***

1. Диканьская Н.Н., Герасименко Е.В. Оценочная деятельность как основа управления качеством образования. Стандарты и мониторинг в образовании. М ., 2003, № 4, с. 22-26

2. Кузнецова А.Г. Личностно ориентированный подход к современному уроку: учебное пособие. Хабаровск, 2004.

3.Куррикулум по воспитанию детей раннего и дошкольного возраста (1-7 лет) Респ. Молдова, Ин-т педагогических наук. – Ch.: S. n., 2007 (Combinatul Polig.). – 108 стр.

4. Осокина П.И. Физическая культура в детском саду. М., Просвещение, 1973.

5.Селевко, Г.К. Современные образовательные технологии. М., 2004 г.

6. Тимофеева, Н.В., Зотова Ю.В. Занятие в детском саду. Волгоград, 2009.

***Türk dilində***

1. Okul Öncesi Eğitim Proqramı (36-72 aylık çocuklar için). Öğretmen Kılavuz Kitabı. Devlet Kitapları Müdürlüğü- Ankara 2006.
2. Okul Öncesi Eğitim Proqramı (36-72 aylık çocuklar için). Devlet Kitapları Müdürlüğü- Ankara 2006.
3. Okul Öncesi Eğitiminin İlke ve Yöntemleri. Ankara 2011.198 s.
4. İlköğretime Hazırlık ve İlköyretim Proqramları.Pegem Akademi, 2010.194 s.

Kitab Təhsil Problemləri İnstitutunun
Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatında yığılıb,
səhifələnmiş və çap edilmişdir.

Çapa imzalanıb 25.11.2015. Kağız formatı 60x84 1/16,
Ofset çapı. Ofset kağızı və şərti çap vərəqi 6,0.
Sifariş 1. Tiraj 3000. Müqavilə qiyməti ilə.

AZ, Bakı şəhəri Afiyəddin Cəlilov küçəsi 86.
Tel: (+994 12) 490 29 32, 490 29 34

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏKTƏBƏQƏDƏR TƏHSİL PROQRAMI (KURİKULUMU)

